www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 2 fevral 2016-cı il Çərşənbə axşamı № 24 (6345) Qiymәti 60 qəpik

**Xəbər**

## Ölkəyə gətirilən "18 milyard inqilab pulu" ilə bağlı cinayət işi başlandı

yazısı səh.10-da

### Beynəlxalq münasibətlərdə "buzların əriməˮ dövrü

# İQTİDARIN YENİ QƏRB STRATEGİYASI - TƏFƏRRÜAT

Azərbaycanın təmsil olunduğu və əməkdaşlıq etdiyi bütün təşkilatlarla əlaqələrində "yeni səhifə" açmaq tapşırığı verilib; ATƏT-in Bakı ofisinin yenidən bərpa olunacağı xəbəri yayılıb; beynəlxalq təşkilatlarla münasibətlərin tənzimlənməsi prosesinə bəzi QHT-lər də cəlb edilir...



yazısı səh.8-də

## Azərbaycan prezidenti qısa zaman sonra Gürcüstana yenidən niyə gedir?

Bakı və Tiflis yeni həssas dönəmdə bir daha "əqrəbləri tutuşdurmaq" zorundadır; AŞ PA-dakı dəstəyin ardınca gürcü müdafiə nazirinin Ermənistana səfəri nəyə hesablanıb?..

yazısı səh.9-da

**Gündəm**

### Deputatlar sahibkarların müdafiəsinə qalxdılar



"Dünən iş adamlarından 10 min istəyirdilər, bu gün ikiqat, üçqat tələb etməyə başlayıblar"; YAP-çı deputat: "Artıq sahibkarlar monopoliyanın bərpa olunmasını arzulayırlar, deyirlər ki, yenə əvvəllər monopolistlərlə dil tapmaq olurdu"

yazısı səh.5-də

### Kitabların da qiyməti bahalaşacaq

yazısı səh.3-də

### 2016-cı ildə hökumət ASAN-laşacaqmı...

yazısı səh.11-də

### Prezidentin tənqidinə reaksiyaların ortaya çıxardığı həqiqət

yazısı səh.6-da

### Müsavat rəhbərliyi ilə rifahçılar arasında yeni gərginlik

yazısı səh.7-də

### Ermənilər Qurgeni yenə məzardan çıxarır

yazısı səh.3-də

### Azərbaycan pensiyaçıları yol süpürür, xaricilər isə dünya turuna çıxır...

yazısı səh.15-də

### AVCİYA Minsk Qrupu həmsədrlərinin xidmətindən imtinaya çağırdı

yazısı səh.13-də

### Rusiya ilə Türkiyə müharibənin bir addımlığında...

yazısı səh.9-da

### "Etibar Pirverdiyevin adamları Qarabağ əlillərinə divan tutur"

yazısı səh.15-də

### YAP bəzi partiyaların bağlanmasını istəyir

yazısı səh.7-də

### Bakıdan Çinə gedən qatar Qazaxıstanda "itib"

yazısı səh.14-də



### Əflatun Amaşovdan qəzetləri xilas çağırışı: "ƏDV ləğv olunsun"

yazısı səh.3-də



*Fazil Mustafa:*

### "XİN xaricdə diplomatik fəaliyyətlə yox, əyləncələrlə məşğuldur"

yazısı səh.6-da



### Cəlal Əliyev I Fəxri Xiyabanda dəfn edildi

yazısı səh.4-də



# Aksiya olan rayonlarda sakitlikdir

**Manatın ikinci devalvasiyasından sonra ərzaq məhsullarının bahalaşması bəzi bölgələrdə əhalinin etiraz aksiyası keçirmələrinə səbəb oldu. Ucuzluq və iş istəyən rayon sakinləri ilə yerli icra hakimiyyətinin nümayəndələri görüşərək söhbətlər apardılar.**

Bəs bu söhbətlərin nəticəsi nə oldu? Hazırda aksiya keçirilən yerlərdə vəziyyət necədir?

Əhalinin etiraz aksiyası keçirdiyi Füzuli rayonunda hazırkı vəziyyəti öyrənmək üçün rayonun yerli icra hakimiyyətinin Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Bayram Niftəliyevlə əlaqə saxladıq. B. Niftəliyev musavat.com-a açıqlamasında bildirdi ki, hazırda rayonda hər şey qaydasındadır: "İcra başçısının göstərişindən sonra bazarlarda vahid qiymət qoyuldu. Unun da qiyməti aşağı salındı. Hazırda Füzulidə unun qiyməti növlərinə görə müəyyənləşdirilib. Ən bahalı unun bir kisəsinin qiyməti 24 manatadır. Növünə görə 21 manata da bir kisə un almaq olar. Yəni digər rayonlarda qiymətlər necədirsə, bizdə də elədir. Qısası, rayonda hər şey öz axarı ilə gedir. Heç bir problem yoxdur".

Sakinləri ucuzlaşma istəyən Ağcabədi rayonundakı hazırkı vəziyyət barəsində isə musavat.com-a rayon icra hakimiyyətinin Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Mərdəli Quliyev məlumat verdi. M.Quliyev də söylədi ki, hazırda Ağcabədidə ictimai-siyasi vəziyyət normaldır: "Qiymətlərə gəlincə isə bizim rayonda da məhsulların qiymətləri qaydasındadır. Rayonda mütəmadi olaraq yarmarkalar keçirilir. Bu baxımdan heç bir problem yoxdur".

Siyəzən Rayon İcra Hakimiyyətindən də musavat.com-a bildirildi ki, rayonda etiraza səbəb olacaq heç bir hal yoxdur. Sakinlərin problemlərinin həlli istiqamətində işlər aparılır. Hazırda isə sakitçilikdir.

❑ Əli RAİS

# İranlı məhkumun ailəsi prezident İlham Əliyevə müraciət etdi

**Azərbaycan həbsxanalarında cəza çəkən xeyli İran vətəndaşları var. Onların arasında güneyli soydaşlarımız çoxluq təşkil edirlər. İranlıların böyük əksəriyyəti cəzalarının qalan hissəsini öz ölkələrində çəkmək istəyirlər və buna görə də ekstradisiya olmaq üçün ciddi cəhdlər göstərirlər. Bu məsələdə İranın ölkəmizdəki səfirliyi də onlara maxsimum yardım edir. Bu günədək xeyli sayda İranlı məhkum öz ölkəsinə ekstradisiya edilibdir. Çox təəssüf ki, əksər hallarda əsassız süründürməçilik ucbatından bu proses çox ağır gedir. Nəticədə soydaşlarımız illərlə öz ailə üzvləri və digər yaxınları ilə görüşə bilmirlər. Onların maddi və mənəvi dəstəyindən məhrum olurlar.**

Belə məhkumların bir qismi də 13 saylı cəzaçəkmə müəssisəsində cəza çəkirlər. Onlar Novruz bayramı ərəfəsində gözlənilən növbəti ekstradisiyaya ümid edirlər. Musavat.com-a verilən məlumata görə, belə məhkumlardan biri də 1970-ci ildə Astara şəhərində anadan olmuş İsgəndər Bəhram oğlu Nəhaidir. O, 2010-cu ildə həbs edilib və 13 il azadlıqdan məhrum cəzası alıb. Ancaq vəziyyət elə gətirib ki, İsgəndər Nəhainin hələ də tam dəqiq olmayan növbəti ekstradisiyanı gözləməyə imkanı yoxdur. Onun yaxınlarından aldığımız məlumata görə, 17 yaşlı qızının səhhətində kritik problem yaranıb və vəziyyəti olduqca təhlükəlidir. Həyatda qalma şansları günbəgün azalır. Ona görə də onun ailəsi qəzetimiz vasitəsilə ölkə başçısı cənab İlham Əliyevə müraciət edərək İsgəndər Nəhainin istisna hal kimi təcili olaraq İrana ekstradisiya edilməsinə yardımçı olmasını xahiş edirlər. Biz də humanizm prinsiplərinə uyğun olaraq İsgəndər Nəhainin yaxınlarının acizanə xahişini nəzərə alaraq onların müraciətini cənab prezidentə çatdırırıq. Ümid edirik ki, soydaşımızın problemi həll olunar.


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;

- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;

- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Mesavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:


# İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərində səfərdədir

**Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfər edib. Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Abu Dabinin Prezident hava limanında dövlətimizin başçısını Abu Dabinin Vəliəhdi, Birləşmiş Ərəb Əmirliklərinin Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd Bin Zayed Əl Nəhyan və digər rəsmi şəxslər qarşılayıblar.**



Sonra Abu Dabinin Prezident hava limanında İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.

Daha sonra İlham Əliyevin Abu Dabinin Vəliəhdi, Birləşmiş Ərəb Əmirliklərinin Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd Bin Zayed Əl Nəhyan ilə geniş tərkibdə görüşü olub.

Görüşdən əvvəl BƏƏ-nin dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Abu Dabinin Vəliəhdi, Birləşmiş Ərəb Əmirliklərinin Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd bin Zayed Əl Nəhyana təqdim olunub.

Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinə səfərə dəvətə görə Abu Dabinin Vəliəhdi, Birləşmiş Ərəb Əmirliklərinin Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd bin Zayed Əl Nəhyana minnətdarlığını bildirib.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə edilib. Siyasi, iqtisadi, ticarət, investisiya qoyuluşu və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi məsələləri müzakirə olunub. Turizm sahəsində əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu bildirilib.

İlham Əliyev Azərbaycandan Birləşmiş Ərəb Əmirliklərinə və bu ölkədən Azərbaycana gələn turistlərin sayının artmasından məmnunluğunu ifadə edib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müzakirə aparılıb. Prezident İlham Əliyev bu münaqişənin beynəlxalq hüququn prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini vurğulayıb.

İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinə BMT Baş Məclisində münaqişə ilə bağlı qətnamənin qəbul edilməsində dəstəyə görə minnətdarlığını bildirib, Azərbaycanın da öz növbəsində BMT və digər beynəlxalq təşkilatlarda Birləşmiş Ərəb Əmirliklərinin mövqeyini dəstəklədiyini qeyd edib.

Görüşdə regional təhlükəsizlik məsələləri müzakirə edilib, əməkdaşlığımızın bundan sonra da inkişaf etdiriləcəyinə əminlik ifadə olunub.

Prezident Abu Dabinin Vəliəhdi, Birləşmiş Ərəb Əmirliklərinin Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanı Azərbaycana rəsmi səfərə dəvət edib.

Bundan sonra İlham Əliyev Abu Dabidə Şeyx Zayed məscid kompleksini ziyarət edib.

Dövlətimizin başçısına məlumat verilib ki, məscid Birləşmiş Ərəb Əmirliklərinin qurucusu Şeyx Zayed bin Sultan Əl Nəhyanın təşəbbüsü ilə inşa edilib. Onun məzarı da buradadır. Prezident İlham Əliyev Şeyx Zayed bin Sultan Əl Nəhyanın məzarını ziyarət edib.

**Məscidlə tanışlıqdan sonra xatirə şəkli çəkdirilib. Prezident İlham Əliyev məscidin xatirə kitabına ürək sözlərini yazıb.**




# Ağcabədidə orta məktəb müəlliməsi qaçırılıb

**Azərbaycanda orta məktəb müəlliməsi qaçırılıb. "Report" xəbər verir ki, hadisə Ağcabədi rayonunda baş verib. Rayon sakini 22 yaşlı Ağayeva Fəridə Əsgər qızı işlədiyi məktəbdən evə gedərkən bir qrup gənc tərəfindən avtomobilə məcburi mindirilərək naməlum istiqamətə qaçırılıb.**

Qızın qaçırıldığını görən qardaşı müdaxilə etmək istəsə də, naməlum şəxslər ona xəsarət yetirərək hadisə yerindən uzaqlaşıblar.

Ağayevlər ailəsi dərhal Daxili İşlər Nazirliyinin "102-Qaynar xəttinə" və Ağcabədi Rayon Polis Şöbəsinə məlumat veribl ər. Hazırda rayon polis şöbəsində əməliyyat-axtarış tədbirləri həyata keçirilir.

Faktla bağlı Ağcəbədi Rayon Polis Şöbəsində Cinayət Məcəlləsinin 144.2.3 və 144.3-cü (adam oğurluğu) maddələri üzrə cinayət işi başlanılıb.

# Orduda cinayətlərin qarşısının alınması məqsədilə tədbirlər planı imzalanıb

**2016-cı ildə Silahlı Qüvvələrdə hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsi, cinayət hadisələrinin qarşısının alınması məqsədilə Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu arasında birgə tədbirlər planı imzalanıb.**




Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, tədbirlər planına əsasən keçirilməsi nəzərdə tutulan tədbirlərin icra vaxtı, keçirilmə yeri və məsul şəxslər müəyyən edilib.

İl ərzində birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində müxtəlif kateqoriyalardan olan hərbi qulluqçularla nəzərdə tutulan görüşlərdə şəxsi heyətin hüquqi biliklərinin artırılması, nizam-intizamın və hüquq qaydalarının möhkəmləndirilməsi, mövcud problemlərin aradan qaldırılması istiqamətində müəyyən olunmuş tədbirlər və digər fəaliyyətlər həyata keçiriləcək.

# Rusiyaya məxsus yük avtomobillərinin Türkiyə ərazisindən keçməsi qadağan olunub

**Rusiyaya məxsus yük avtomobillərinin Türkiyə ərazisindən keçməsi qadağan edilib. APA-nın xəbərinə görə, bu barədə Rusiya Beynəlxalq Avtomobil Yükdaşıma Assosiasiyasının məlumatında deyilir. Bildirilir ki, buna səbəb Türkiyənin 2015-ci il üçün verdiyi icazənin müddətinin bitməsidir:**

"Hələ də Türkiyə tərəfindən 2016-cı ildə yükdaşımalara aid icazə sənədi daxil olmayıb. Hazırda Rusiya Nəqliyyat Nazirliyi məsələnin həlli üçün çalışır. Türkiyə tərəfinə məsələ ilə bağlı yenidən müraciət göndərilib".




# Müsavatçı gənc həbsdə qaldı...

**Nemət Kərimli:** "Açıq şəkildə cibinə narkotik yerləşdiriblər"

**Fevralın 1-də Bakı Apelyasiya Məhkəməsində müsavatçı gənc Elvin Paşayevin şikayətinə baxılıb. Yanvarın 23-də narkotik maddələrin satışı ittihamı ilə həbs edilən müsavatçı gənc barəsindəki 4 aylıq həbs-qətimkan qərarı dəyişdirilməyib.**

Bu barədə musavat.com-a E.Paşayevin vəkili Nemət Kərimli məlumat verib: "Nərimanov Rayon Məhkəməsinin Elvin Paşayev barəsində çıxardığı həbs-qətimkan qərarından verdiyimiz şikayətə baxıldı. Elvinin özünün iştirakı məhkəmədə təmin edilmişdi. O, prosesdə bildirdi ki, "Feysbuk"da yazdıqlarına və Sumqayıt Dövlət Universiteti barəsindəki məqaləsinə görə həbs edilib. Həbsinin siyasi xarakterli olduğunu bildirdi. Sosial şəbəkədə bahalaşma əleyhinə event yaradılıb və Elvin həmin eventdə fəal iştirak edib. Yanvarın 23-də dərsə gedərkən saxlanılıb, özlərini təqdim etməyən 3-4 nəfər mülki geyimli şəxs tərəfindən zorla maşına mindirilib aparılıb. Onun sol cibinə 65 qram narkotik maddə qoyulub. Barəsində həbs-qətimkan tədbirinin seçilməsi ilə bağlı məhkəmə qərarında ortaya heç bir sübut qoyulmayıb. Qanunsuz olaraq, məhkəmə şikayətimizi təmin etmədi".

**Vəkil gənc fəalın psixoloji durumunun gərgin olduğunu da qeyd etdi:** "Elvin bir az gərgin vəziyyətdədir. Bu cür ədalətsizlik ona ağır təsir edir. Həbsi yox, yaşadığı cəmiyyətdə olan ədalətsizliklə barışa bilmir. Elvin saxlanılarkən təzyiqlərlə üzləşib. Onun əllərini qaldırıblar və açıq şəkildə cibinə narkotik yerləşdiriblər. Qapalı proses olduğundan, yaxınları iştirak edə bilmədilər. Hazırda Elvin 1 saylı Bakı İstintaq Təcridxanasında saxlanılır".

❑ Cavanşir ABBASLI

# Azərbaycanda dolların ucuzlaşması davam edir

**Azərbaycan Mərkəzi Bankı (AMB) sabah olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb.**

AMB-dən "APA-Economics"ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi fevralın 2-nə 1,5940 səviyyəsində müəyyən olunub. Qeyd edək ki, dollar bu gün 1,5972 manata bərabər olub

YENİ MÜSAVAT
N 24 (6345) 2 fevral 2016



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Ermənilər Qurgeni yenə məzardan çıxarır

## Avropa İnsan Haqları Məhkəməsinin Ramil Səfərov işi ilə bağlı qərarı necə olacaq?

**Avropa İnsan Haqları Məhkəməsində Ramil Səfərovun Azərbaycana ekstradisiyası və ölkə başçısı tərəfindən əfv edilməsi məsələsinə baxılacaq. Belə ki, Avropa İnsan Haqları Məhkəməsi həm Azərbaycanı, həm də Macarıstanı azərbaycanlı zabit Ramil Səfərovun qətlə yetirdiyi Ermənistan hərbçisi Qurgen Marqaryanın işi üzrə cavabdeh kimi tanıyıb.**

Marqaryanın qohumlarının hüquqlarını Avropa İnsan Haqları Vəkil Mərkəzi, Ermənistanın «Legal Guide» ictimai təşkilatı və vəkil Nazeli Vardanyan təmsil edir. Marqaryanın qohumları həmçinin hərbçinin qətlini "milli nifrət zəminində törədilmiş cinayət" adlandırıblar.

"Yeni Müsavat"ın suallarını cavablandıran **hüquqşünas Müzəffər Baxış** Ramil Səfərovun Azərbaycana ekstradisiyasının tam qanuni olduğunu və bunun əleyhinə qərar çıxarılmayacağını bildirib: "Ramil Səfərov Macarıstanda ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilib və cəzasını da orada çəkib. Avropa Komissiyasının məhkum edilmiş şəxslərin ekstradisiyası haqqında konvensiyası var və həmin konvensiyaya əsasən Azərbaycan dövləti Macarıstan dövlətinə müraciət edib. Təbii ki, burada Azərbaycan özünün həm hüquqi imkanlarından, həm də dünyada yaranan siyasi vəziyyətdən, dövlətlərlə münasibətlərindən də istifadə etdi. Tam qanunauyğun şəkildə Ramil Səfərovun cəzasını çəkmək üçün Azərbaycana ekstradisiya olunması barədə Macarıstanda qərar qəbul edildi. Bundan sonra məhz Ramil Səfərov Azərbaycana daxil olduqdan sonra Azərbaycan Respublikasının Prezidenti tam qanunauyğun şəkildə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinə, o cümlədən Cinayət Məcəlləsinin 82 -ci maddəsinə uyğun olaraq prezident səlahiyyətlərindən istifadə edərək Ramil Səfərovun əfv edilməsi barədə qərar qəbul etdi. Mən düşünürəm ki, bu qərar həm Konstitusiyanın, həm də Cinayət Məcəlləsinin tələblərinə tam uyğun bir qərar idi".

**M. Baxışovun sözlərinə görə, bəzi hüquqşünaslar Ramil Səfərovun əfv edilməsini qanunsuz adlandırsalar da, onların hüquqi əsasları yanlışdır:** "Özlərini hüquqşünas adlandıran bəzi şəxslər o zaman belə şərh edirdilər ki, guya Ramil Səfərovun əfv edilməsi qanunsuz olub. Onlar Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 82.3-cü maddəsinə istinad edirdilər və həmin maddədə göstərilir ki, ömürlük azadlıqdan məhrumetmə cəzası, əfv edildikdə 25 ildən çox olmayaraq, azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilə bilər. Onlar buna istinad edirdilər və belə şərh edirdilər ki, Ramil Səfərovu prezident əfv edə bilməz. Halbuki bu maddənin məzmunu başqa nüansı izah edir. Bu maddə belə bir qaydanı izah edir ki, əgər ömürlük azadlıqdan məhrumetmə cəzası müəyyən müddətə azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilərəksə, o, 25 ildən çox olmayan müddətə əvəz edilə bilməz. Lakin Cinayət Məcəlləsində ömürlük azadlıqdan məhrumetmə cəzasının əfv edilməsini qadağan edən hər hansı norma yoxdur. Azərbaycan Respublikasının Prezidenti Konstitusiyasının 109-cu maddəsini, o cümlədən Cinayət Məcəlləsinin 82 -ci maddəsini rəhbər tutaraq Ramil Səfərovu azad etdi".

**Ermənilərin Avropa İnsan Hüquqları Məhkəməsinə müraciətinə gəlincə, ekspert bildirdi ki, bu müraciəti rəhbər tutaraq beynəlxalq məhkəmə prezidentin əfvinə qarşı heç bir qərar qəbul edə bilməz:** "Mən bilmirəm ki, Avropa İnsan Hüquqları Məhkəməsi bu müraciəti öz icraatına götürər, ya yox. Amma qəbul etsə də, Avropa İnsan Hüquqları Məhkəməsi Azərbaycan prezidentinin Ramil Səfərovu əfv etməsi il bağlı heç bir qərar qəbul edə, bu qərarın ləğvi ilə bağlı heç bir göstəriş verə bilməz".



Xatırladaq ki, 2004-cü ilin fevralında Budapeştdə NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində ingilis dili kursları təşkil edilib. Kursa Azərbaycan və Ermənistan zabitləri də qatılıblar. Ramil Səfərov erməni zabitini elə həmin kursda oxuyarkən qətlə yetirib. O, belə addıma əl atmasını Marqaryanın Azərbaycan bayrağını təhqir etməsi ilə əsaslandırıb. 2006-cı ilin aprelində Budapeşt məhkəməsinin qərarı ilə Ramil Səfərova 30 il əfv edilməmək şərti ilə, ömürlük həbs cəzası verilib.

2012-ci il avqustun 31-də o, Azərbaycana təhvil verilib və İlham Əliyev Ramil Səfərovun dərhal əfv edilməsinə dair sərəncam imzalayıb. Bundan sonra Ermənistan Macarıstanla diplomatik əlaqələri kəsib.

❑ **Nərgiz LİFTİYEVA**



# Mətbuat Şurasının sədrindən qəzetləri xilas çağırışı

## Əflatun Amaşov: "ƏDV ləğv olunsun"

**Mətbuat Şurasının sədri, deputat Əflatun Amaşov Milli Məclisin 1 fevral tarixli plenar iclasında mətbuat işçilərini narahat edən problemlərdən danışdı. O, əvvəlcə "Diffamasiya haqqında" qanunun qəbulunu zəruri saydı: "Diffamasiya ölkəmizin daha da demokratikləşməsinə aparan yoldur, bu yol hər bir halda gedilməlidir. Məsələ prinsipial olaraq belədir ki, jurnalist yazdığı yazıya görə həbs edilməməlidir. Əlbəttə, narahatlıq başadüşüləndir, mediada ən müxtəlif materiallar dərc olunur, təhqir və böhtan yazıları gedir. Bu, o demək deyil ki, qanun qəbul olunarkən hamı məsuliyyətdən azad olunmalıdır.**

Qeyd edim ki, ölkə prezidenti cənab İlham Əliyev öz çıxışlarında Azərbaycanda diffamasiya sahəsində moratorium olduğunu dəfələrlə vurğulayıb. On ildən çoxdur ki, faktiki olaraq, ölkədə heç kim Cinayət Məcəlləsinin 147 və 148-ci maddələri ilə azadlıqdan məhrum edilməyib. Azərbaycan Mətbuat Şurası da bunu əsas tutaraq, diffamasiya ilə bağlı konkret təkliflər hazırlayıb, ATƏT-in Bakı Ofisinin ekspertizasından keçib, Prezident Administrasiyası, KİVDF, Mətbuat Şurası, ATƏT və Avropa Şurasının nümayəndələri bu məsələni dəyirmi masalarda müzakirə edib". Ə.Amaşov dedi ki, qanunun hazırlanmasında ilkin variant kimi Mətbuat Şurasının Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinə təqdim olunmuş layihəsi əsas götürülə bilər.

**Mətbuat Şurasının sədri devalvasiya nəticəsində mətbuatın üzləşdiyi problemlərdən də bəhs etdi və ölkəyə gətirilən qəzet kağızına, həmçinin hazır çap məhsullarına tətbiq edilən ƏDV-nin ləğv olunmasını zəruri saydı:** "Yanvarın 1-dən ölkəyə gətirilən qəzet kağızı və çap məhsullarına ƏDV bərpa olunub. Devalvasiyadan sonra qəzet kağızının qiyməti 100 faiz, çap xərcləri isə 50 faiz artıb. Biz həmişə qeyd etmişik ki, Azərbaycanda KİV ƏDV-dən azaddır. Biz bu məsələyə qayıdaraq, mətbuatın durumunu yaxşılaşdırmaq üçün mətbuat üzərindəki ƏDV-nin aradan qaldırılması məsələsini gündəmə gətirsək, çox yaxşı olar".

❑ **E.PAŞASOY**

# Kitabların qiyməti də bahalaşacaq

## Şahbaz Xuduoğlu: "Artıq 10 gündür kitabları gömrükdən götürə bilmirik"



Şahbaz Xuduoğlu

**Kitabların qiyməti artacaq. Bu barədə "Qanun" nəşriyyatının direktoru Şahbaz Xuduoğlu AzadlıqRadiosuna açıqlamasında bildirib. "Yalnız kağız deyil, kitabın da qiyməti artacaq. Xaricdən gələn həm xarici kitablara, həm də xaricdə nəşr olunan yerli yazarların kitablarına gömrükdə 18 faiz ödənməlidir. Bu vaxta qədər kitab 18 faiz ƏDV ödəyicisi idi, yəni bazarda satılarkən ƏDV ödəyirdik. Belə çıxır ki, indi ikiqat vergi ödəyəcəyik.**

Hazırda bizim gömrükdə 10 adda kitabımız var və hərəsi təxminən 1500-2000 tirajdı. Bunlara görə 10 min manat - yəni 18 faizlik ƏDV ödəməliyik. Artıq 10 gündür kitabları gömrükdən götürə bilmirik. Əvvəllər bu ödəniş yox idi, 2016-cı il yanvarın birindən Vergi Məcəlləsinə olan dəyişikliyə görə xaricdən gətirilən kitablar da vergiyə cəlb olundu. Biz əksini gözləyirdik, elə bilirdik ki, danışılan islahatlarda kitabın üzərindən 18 faiz ƏDV götürülər, amma əksinə oldu, indi kitaba görə ikiqat vergi ödəyəcəyik", - Ş.Xuduoğlu belə deyib.

**Təkcə xarici müəlliflərin deyil, yerli yazarların da kitablarının bahalaşacağını deyən nəşriyyat direktoru əlavə edib:** "Biz bəzi kitablarımızı xarici ölkələrin nəşriyyatında çap edirdik, çünki Azərbaycanda böyük mətbəə sənayesi yoxdur, elə o avadanlığı gətirə bilməməyimizin səbəbi gömrükdə yaradılan problemlər olub. Biz kitabın bütün nəşriyyat işini burda görüb sadəcə çap üçün xaricə göndərirdik. İndi belə çıxır ki, bu kitablara ikiqat vergi qoyulur və bunun da fonunda kitabın qiymətinin bahalaşması qaçılmazdır. Digər tərəfdən, kağız bahalaşdığı üçün yerli çap olunan kitabların da qiyməti qalxacaq".

Bu isə Azərbaycanda onsuz da baha qiymətə olan kitabların bundan sonra oxucuya çatımlı olmayacağını xəbər verir. Azərbaycanda kitab mağazalarının ciddi məbləğdə kirayə haqqı, eləcə də nəşriyyatların çap xərcləri kitabların qiymətinə təsirsiz ötüşmürdü. 18 faizlik ƏDV artımı isə durumu daha da kritikləşdirir. Eyni problem qəzetlər üçün də keçərlidir. Çünki qəzet redaksiyaları artıq çap xərclərinin ikiqat artımı ilə üzbəüz qalıblar. Çarə olaraq qəzetlərin satış qiymətində cüzi artım edilsə də, bu, yaranmış vəziyyətdən çıxış yolu deyil.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 24 (6345) 2 fevral 2016



# Qarabağ probleminin həlli nə vaxta qaldı?

Hüseynbala SƏLİMOV

**Qonşu Rusiyanın xarici işlər naziri S.Lavrovun bu yaxınlardakı açıqlamasından belə məlum oldu ki, onun nə özünün, nə də ki, ölkəsinin Qarabağ probleminin həlli ilə bağlı hər hansı planı yoxdur və digər həmsədrlər kimi Rusiya da, sadəcə, bu gün tərəflər arasında diplomatik vasitəçilik etməklə məşğuldur...**

Bizim üçün bu, fövqəladə bir xəbər olmadı. Hətta Litvanın sabiq liderlərindən biri olan V.Landsberqis də Qarabağın işğalının arxasında Rusiyanın dayandığını və bu işğala daim dəstək olduğunu deyirsə, Rusiyadan nəsə ummağa dəyərmi?

Bu açıqlamadan azacıq sonra toplantıların birində Azərbaycan prezidenti də Minsk Qrupunun həmsədrlərini xeyli tənqid etdi. Xatırladaq ki, Azərbaycan rəsmiləri əvvəllər də həmsədr ölkələr barəsində tənqidi fikirlər səsləndirirdilər. Amma bu il müəyyən gözləntilər vardı...

Düzdür, hələ də müəyyən etmək olmur ki, onlar haradan və necə qaynaqlanırdı? Bütün bunlar jurnalistlərin təxəyyülünün məhsulu idi, yoxsa ortalıqda həqiqətən də bir təşəbbüs vardı?

Bir daha deyirik ki, bir il ölkənin xarici siyasətini onun xarici işlər nazirindən daha yaxşı bilən tapılmaz. Cənab S.Lavrov özü isə dedi ki, ortalıqda nə "Lavrov planı" deyilən bir şey olub, nə də ki, buna bənzər bir şey baş verib...

Təbii ki, biz təkcə Rusiyadan nəsə ummuruq. Digər həmsədr ölkələr də var və bu ölkələr də öz fəaliyyətlərilə bağlı elə də nəzərə çarpmırlar...

Və bütün bunlar bir daha göstərdi ki, həmsədrlər həqiqətən də özlərini diplomatik turistlər kimi aparırlar - seyrək şəkildə bölgəyə səfərlər edir, bir -iki görüş keçirir və bununla da işlərini bitmiş hesab edirlər...

Bəli, Qarabağ problemi beləcə uzanmaqda davam edir. Avropa Şurasında planlaşdırılan təşəbbüs də baş tutmadı. Yox, mən "ikili standartlar"dan nəsə deməyəcəyəm...

Məlum məsələdir, ya din amili ucbatından, ya da dünyada daha çox önəm kəsb etməyə başlayan insan haqları və azlıqların haqları ucbatından bu məsələ tamam düyünə düşüb...

Hələ bir neçə il bundan əvvəlin söhbətidir. Dünyadakı qlobal tendensiyaları araşdıran bir müəllif "ərazi bütövlüyü" prinsipində israr edənləri "iki ölçülü coğrafi təfəkkür" sahibləri adlandırmışdı...

Təbii ki, onun baxışlarını bölüşmək fikrimiz yoxdur. "Ərazi bütövlüyü prinsipi" beynəlxalq hüququn əsas sütunlarından biri kimi qalır. Amma indi çox mütəhərrik vəziyyət yaranıb, dünya siyasətində nəyin prioritet olması bir qədər mübahisəli məsələdir. Bir məsələ aydındır ki, bu prinsip sakral məzmun təşkil etsəydi bu qədər yeni dövlətlər yaranmazdı...

Mən həmişə düşünmüşəm ki, Qarabağ probleminin həlli Rusiya imperiyasının durumundan asılıdır, bu imperiya çöksə Qarabağ da həllini tapacaq...

Amma axır vaxtlar buna da şübhə etməyə başlamışam. Ona görə ki, Fransa və ABŞ Ermənistanı heç də Rusiyadan az müdafiə etmir...

Biz uşaqlarımızı bu ölkələrə oxumağa göndərməyə qorxduğumuz halda ermənilər nəinki öz tələbələrini oralara göndərir və hətta özləri köçüb oralarda məskunlaşırlar. Ona görə də həm Fransada, həm də ABŞ-da erməni təsiri azalmır, əksinə artır...

Düşünürəm ki, hətta Rusiya imperiyası çöksə belə, yenə də Qarabağ problemi özünün ədalətli həllini çətinliklə tapacaq - buna ABŞ və Fransa mane olacaq...

Amma bu labirintdən bir çıxış olmalıdır. Çıxış da bu olmalıdır ki, biz güclü və təsirli olmağı bacarmalıyıq.

İndi hakimiyyət bir məsələnin üstünə düşüb - o, Azərbaycanı multikultural ölkə kimi tanıtdırmağa cəhd edir. Təbii ki, bu, müstəsna əhəmiyyətli məsələdi - əgər Azərbaycanda müxtəlif dinlər, millətlər və bir də mədəniyyətlər yanaşı mövcud ola bilirsə, deməli ermənilərin də bu ölkədə yaşaması mümkündür...

Amma tək bununla kifayətlənmək olmaz. Bəlkə AŞ PA-da bizim istədiyimiz məsələlər həm də ona görə alınmır ki, orada Qarabağ məsələsilə bahəm tutaq ki, Azərbaycanda siyasi məhbuslar məsələsi də müzakirə mövzusu ola bilir...

Bu isə Azərbaycanın demokratik potensialına şübhə yaradır, onun mövcud ola bilməsinə inamı sarsıdır...

Dəfələrlə yazmışıq ki, tolerantlıq və multikulturalizm təkcə etnik, dini və mədəni fərqlərə dözümlülüyü nəzərdə tutmur, daha geniş məzmun kəsb edir. İnsanlar təkcə necə ibadət etdiklərinə, dərilərinin rənginə görə fərqli olmurlar, onların fərqli siyasi baxışları və ictimai mövqeləri də olur...





# Cəlal Əliyev I Fəxri Xiyabanda dəfn edildi

## Akademik uzun sürən xəstəlikdən sonra 88 yaşında vəfat edib

**Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyətinin üzvü, AMEA-nın həqiqi üzvü, biologiya elmləri doktoru Cəlal Əliyev vəfat edib. O, fevralın 2-də I Fəxri Xiyabanda qardaşı akademik Aqil Əliyevin yanında dəfn olunub.**

Musavat.com-un xəbərinə görə, dəfn mərasimində Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev, baş nazirin müavini İsmət Abbasov, daxili işlər naziri Ramil Usubov, fövqəladə hallar naziri Kəmaləddin Heydərov, Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, SOCAR prezidenti Rövnəq Abdullayev, Azərbaycan Respublikasının təhsil naziri Mikayıl Cabbarov, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, deputatlar, ziyalılar, mərhumun ailə üzvləri iştirak edib.

Qeyd edək ki, Calal Əliyev uzun sürən xəstəlikdən sonra 88 yaşında vəfat edib. O, 1928-ci il iyunun 30-da Naxçıvan şəhərində anadan olub. Naxçıvan Dövlət Müəllimlər İnstitutunun təbiət-coğrafiya fakültəsini və Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsini bitirib.

1948-ci ildən Azərbaycan Dövlət Universitetinin bitki fiziologiyası kafedrasında laborant işləyib. 1954-cü ildən Azərbaycan EA-nın Elmi Tədqiqat Əkinçilik İnstitutunda kiçik elmi işçi, baş elmi işçi, laboratoriya müdiri vəzifələrində çalışıb. 1971-1990-cı illərdə Azərbaycan EA-nın Botanika İnstitutunda fotosintezin fiziologiyası yaradıcı qrupunun rəhbəri, laboratoriya müdiri, şöbə müdiri, Azərbaycan EA-nın Biologiya elmləri bölməsinin akademik-katibi olub.

O, I-III çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olub.

C.Əliyev "İstiqlal" ordeni ilə təltif edilib. O, 18 aprel 2014-cü ildə kənd təsərrüfatı sahəsində fundamental tədqiqatları və nailiyyətlərinə görə Həsən bəy Zərdabi adına mükafatla təltif olunub.

Akademikin 1 övladı var. Allah rəhmət eləsin!







# "Sabah başqa məmurla bağlı faktlar gələcək, yayacağıq"

## Eynulla Fətullayev SOCAR-ın cavabını şərh etdi; Jurnalist Bodrumdakı villaların izinə düşməyəcək

**Xəbər verdiyimiz kimi, ötən həftə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) Qiymət Mehdiyev barədə KİV-lərdə yayılan məlumatların araşdırılmasına dair bəyanat yaydı. Bəyanatda göstərildi ki, SOCAR-ın Biznes Etika Məcəlləsinin şirkətin əməkdaşları üçün müəyyən etdiyi hər hansı normasının pozulması halları aşkar edilməyib. Komitə KİV-lərdə yayılmış bu cür məlumatların SOCAR-ın fəaliyyəti ilə heç bir əlaqəsi olmadığını, bu məsələ ilə əlaqədar bəzi KİV-lərin hüquq qaydalarını və jurnalistika prinsiplərini gözləmədən, yoxlanılmadan mütəmadi olaraq əsassız məlumatlar yayımlamasını qeyd edib və bu halları SOCAR-ın fəaliyyəti ilə bağlamaq cəhdlərini şirkətin işgüzar nüfuzuna, yerli və beynəlxalq layihələrin reallaşdırılmasına mənfi təsir göstərə biləcək risk kimi qiymətləndirib. Komitə eyni zamanda belə hallarda SOCAR tərəfindən müvafiq hüquqi addımlar atılmasının zəruriliyini qeyd edib.**



Eynulla Fətullayev

Bəyanatda həmçinin qeyd olunub ki, yazılan yazılar Q.Mehdiyevin "dövlət məmuru" anlayışının altına salınması, onun dövlət orqanında çalışması haqqında yanlış təsəvvür yaradılması, aldığı əmlakın dəyərinin bilərəkdən 300 dəfə artırılaraq ictimaiyyətə çatdırılması, əldə etdiyi gəlirlərin isə qeyri-sağlam təhlili bu şəxsin özünü və ailəsini qanuni mənafeləri nəzərə alınmadan ictimaiyyətin gözündən salmağa yönəldilmiş cəhdlərdi.

**Bu araşdırmanın müəllifi olan haqqin.az saytının baş redaktoru Eynulla Fətullayev isə müsavat.com-a açıqlamasında bildirdi ki, onun əsas missiyası sənədləri ortaya qoymaqdan ibarət olub. Müsahibimizin sözlərinə görə, oxucular da bütün sənədlərlə tanış olublar:** "Qalanı mənim işim deyil. Jurnalistin işi nədir? Faktları ictimaiyyətə çatdırmaq. Təbii ki, SOCAR-ın cavabı məni qane etmədi. Amma mən nə edə bilərəm? Əlimdə hüquq-mühafizə orqanları yoxdur. Bir jurnalist olaraq ictimai nəzarəti həyata keçirirəm. Prezident də müşavirədə deyir ki, ictimai nəzarət güclü olmalıdır. İctimai nəzarətin də əsas institutu mediadır. Bizə bu faktları təqdim elədilər, yaydıq. Sabah başqa məmurla bağlı gələcək, yayacağıq".

**E.Fətullayev dedi ki, bundan sonra sözügedən araşdırmanı davam etmək fikri yoxdur. Müsahibimizin sözlərinə görə, məlum yazıda onsuz da hər şey faktlarla, sübutlarla öz əksini tapıb:** "Bir var mən sadəcə sözlərlə, ehtimallar və şayiələrlə məlumat yayım. Bir də var sübutlar və sənədlərlə. Mənə bu məlumatlar verildi, mən də onları yaydım".

**Müsahibimiz hesab edir ki, bu örnəklə jurnalistin işinin səmərəsizliyi sübut edilmir. Əksinə, ictimai qınaq, etirazlar cəmiyyətin belə məsələlərə necə həssas olduğunu bir daha üzə çıxarıb:** "Bizim əsas hədəflərimiz oxucular, ictimaiyyətdir. Biz Azərbaycan cəmiyyətini məlumatlandırmalıyıq. Bizim ictimai məsuliyyətimiz var və onu həyata keçiririk".

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 24 (6345) 2 fevral 2016

# Deputatlar sahibkarların müdafiəsinə qalxdılar

## Fazil Mustafa: “Dünən iş adamlarından 10 min istəyirdilər, bu gün ikiqat, üçqat tələb etməyə başlayıblar”

## YAP-çı deputat: “Artıq sahibkarlar monopoliyanın bərpa olunmasını arzulayırlar, deyirlər ki, yenə əvvəllər monopolistlərlə dil tapmaq olurdu”

## Bəxtiyar Əliyev: “Hansı sehrli əllərdir Rəqabət Məcəlləsinin qəbuluna imkan vermir?”

**Fevralın 1-də Milli Məclisin yaz sessiyası öz işinə başladı. İlk plenar iclas Dövlət Himninin oxunması və keçmiş deputat, mərhum akademik Cəlal Əliyevin xatirəsinin 1 dəqiqəlik sükutla anılması ilə başladı.**

Spiker Oqtay Əsədov gündəliyi səsə qoyduqdan sonra “Azərbaycan Respublikası Milli Məclisinin 2016-cı il yaz sessiyasının qanunvericilik işləri planı haqqında” sənəd müzakirəyə çıxarıldı. Qeyd edək ki, işlər planında xeyli vaxtdır qəbulu reallaşmayan “Elm haqqında”, “Reproduktiv sağlamlıq haqqında” qanun layihələri də var idi.

“Milli Məclisin İntizam komissiyasının təşkil edilməsi haqqında”, “Milli Məclisin Hesablayıcı komissiyasının yenidən təşkil edilməsi haqqında” və “Azərbaycan Respublikası Milli Məclisi komitələrinin yeni üzvlərinin seçilməsi haqqında” sənəd parlamentdə müzakirəyə çıxarılaraq ayrı-ayrılıqda təsdiq olundu.

**Müzakirə zamanı deputat Aydın Mirzəzadə bir deputatın iki komitədə təmsil olunması barədə əlavəyə etirazını bildirdi:** “Komitə üzvü komitə sədri və müavinindən sonra ən yüksək statusdur. Necə ola bilər ki, aid olduğu komitənin üzvlüyündən başqa, həmin deputat digər bir komitənin də təsadüfi üzvü olsun? Məncə, bu düzgün deyil”.

O.Əsədov isə onunla razılaşmayaraq “burada etiraz etməyə nə ehtiyac var axı, Aydın Mirzəzadə?! Dünyanın hər yerində bu praktika var, biz də tətbiq edirik. Qoy, deputat bir komitəyə yox, digər komitəyə də töhfəsini versin. Həm də deputatın hər bir məsələyə səs verməsi onsuz da onun hüququdur. Burda etiraz ediləsi heç nə yoxdur”-söylədi. Dəyişikliklər səsvermə ilə qəbul edildi.

**Deputat Zahid Oruc yazıçı Çingiz Abdullayevin son açıqlamasına diqqət çəkdi:** “Çingiz müəllim detektiv janrda tirajı milyonu keçən tanınmış yazardır. Bu yaxınlarda "4 uşaq atasını necə işdən çıxardım" deyə, bir çağırışda bulunmuşdu. Məncə, Çingiz müəllim mənim bu sözümdən inciməz. Çingiz Abdullayevin özü 4 vəzifəni daşıyır. O, elə qələm adamlarındandır ki, öz kitabları ilə yaxşı yaşaya bilər. Çingiz müəllimin bu açıqlaması özünə də, bəzi millət vəkillərinə də, məmurlara da aiddir. Heç kimə sirr deyil ki, nazir gedib auditoriyada dərs deyə bilməz. Ən azından min vəzifə buradan yarana bilər. Qoy, Çingiz müəllim başlasın, tutduğu vəzifələrdən imtina etsin, digərləri də bu prosesi davam etdirsin". Z.Oruc işğal altındakı ərazilərimizin adlarının kafe və restoranlara, digər obyektlərə qoyulmasına da etiraz etdi: “Şuşa və ümumiyyətlə, işğal bölgəsi ilə bağlı adlar yığışdırılmalıdır”.

**Deputat Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin müstəqil olmasını təklif etdi. Ardınca icra başçılarını tənqid etdi:** “Biri gedir, başqası gəlir, amma əvvəlkinin qərarlarını ləğv edir. Bu, niyə belə olmalıdır ki..?” Z.Oruc MİS-lərin fəaliyyətsiz qurumlara çevrildiyi halda, bu quruma vəsaitlərin ödənildiyini xatırlatdı, bu sahədə islahatlara gedilməsi zəruri saydı. Dağlıq Qarabağ Muxtar Vilayətinin 90-cı illərdə AXC hökuməti tərəfindən ləğv edildiyini xatırladan Z.Oruc bildirdi ki, bu gün Dağlıq Qarabağ adı ermənilərdə mövcuddur: “Dağlıq Qarabağ Muxtar Vilayəti bərpa olunmalıdır. Bu adın bərpası hüququ həmin ərazinin sahibi kimi Azərbaycana məxsusdur”.

**Deputat Fazil Mustafa çıxışında kino sənətinin səviyyəsini qaldırmaq üçün təkliflər verdi. O bildirdi ki, bu qədər pullar xərclənsə də, normal film ortaya qoyulmayıb. O, qanunvericiliklə bağlı təkliflərini də səsləndirdi:** “Mən gözləyirdim ki, bu sessiyada, nəhayət, Rəqabət Məcəlləsi qəbul ediləcək. Bu ölkənin əsas problemi rəqabət problemidir. Ölkə prezidenti ürək yanğısı ilə deyir ki, sahibkarlığa dəstək vermək lazımdır. Ancaq dünən iş adamlarından 10 min istəyirdilər, bu gün ikiqat-üçqat tələb etməyə başlayıblar. Artıq prezidentin də tələbləri səmərə verməməyə başlayıb”. F.Mustafa bəzi yazılan fikirləri təkzib edərək, AŞ PA-da nümayəndə heyətinin çox böyük uğur qazandığını dedi, bu münasibətlə spikeri də təbrik etdi.

**Spiker F.Mustafanın təkliflər barədə dedi ki, “Elm haqqında” Qanun artıq birinci oxunuşdan keçib:** “Əminəm ki, bu sessiyada ikinci, üçüncü oxunuşda baxacağıq. "Rəqabət haqqında" qanun layihəsinin üçüncü oxunuşu qalıb. Bunun qalması xeyirdir ki, layihəni daha da təkmilləşdirək, sonra müzakirəyə çıxaraq".

**Deputat Elmira Axundova** mərhum prezident Heydər Əliyevin “mövqeyinizi bildirin” sözlərini xatırlatdı və parlamenti, o cümlədən gənc deputatları müzakirələrdə aktiv iştiraka, mövqe bildirməyə çağırdı. Bankların bağlanmasından danışan deputat “Mərkəzi Bank rəhbərliyi radikal addımlar atarkən mütləq bu barədə ictimaiyyətə ətraflı məlumat verməlidir. Çalışmaq lazımdır ki, insanlar bu proseslərdən minimum itkilərlə çıxsınlar” söylədi. E.Axundova mühasib vəzifəsinə işə götürülmə prosesini asanlaşdırmağı, bankların bağlanması prosesində ixtisara salınan gənc kadrlardan istifadə olunmasını təklif etdi.

**Fərəc Quliyev kreditorların hüquqlarının qorunması ilə bağlı qanunvericiliyə dəyişiklik etməyi təklif etdi:** “Çünki iki devalvasiyadan sonra kreditlərin xərci xeyli artıb. Mərkəzi Bank və Maliyyə Nazirliyindən də məsələyə fərqli münasibət bildirilir. İnsanların isə ciddi gözləntiləri var”. F.Quliyev vəziyyətdən çıxmaq üçün kredit götürənlərin yükünün azaldılması məqsədilə təkliflərini səsləndirdi.

**Deputat Azay Quliyev yerli icra hakimiyyəti orqanlarının ictimai nəzarətlə bağlı qarşıya qoyulan məsələlərə ciddi yanaşmadığını vurğuladı:** “Milli Məclisdə "İctimai nəzarət haqqında" qanun layihəsi müzakirələrə təqdim edilib. Qanun layihəsi müəyyən boşluqların doldurulmasına, konkret mexanizmlərin yaradılmasına xidmət edəcək. Bəzi yerli icra hakimiyyəti orqanları qanundan irəli gələn məsələlərə lazimi səviyyədə diqqət yetirmir. Məsələn, ictimai şuraların yaradılması ilə bağlı Nazirlər Kabinetinin təsdiq olunmuş əsasnaməsi var. Əsasnamədə şuraların yaradılması qaydaları göstərilib. Amma bəzi qurumlar buna əməl etmir. Bu baxımdan "İctimai nəzarət haqqında" qanun layihəsi burada interaktivlik yaratmalıdır. Mexanizm kifayət qədər aydın, başadüşülən olmalıdır ki, ortaq fəaliyyət tapılsın. Həm də dövlət qurumlarının fəaliyyəti yüksək səviyyədə təşkil olunsun və digər mexanizmlərdə təmin edilsin. Bu baxımdan əminəm ki, biz bunu geniş şəkildə müzakirə edəcəyik və ən optimal layihəni sizin diqqətinizə təqdim edə biləcəyik".

Deputat məktəbəqədər təhsillə bağlı layihənin və sosial sifariş haqqında qanun layihəsinin də hazırlanmasını zəruri saydı.

**Deputat Əli Məsimli** dedi ki, dünyadakı rəqabətə tab gətirmək üçün təhsil sistemində köklü islahatlara gedilməlidir. O, məktəbəqədər təhsildən başlamış, yuxarı pillələrə qədər bütün mərhələlər üzrə keyfiyyətli təhsil üçün ciddi addımlar atmağa çağırdı. Ə.Məsimli yüksək balla ali məktəbə qəbul olunan tələbələrin yüksək təhsil haqqını ödəyə bilmədiyi üçün təhsilini yarımçıq qoyduğunu da dedi və təhsil kreditləri ilə bağlı təklifləri nəzərə almağa çağırdı. Ə.Məsimli “Rəqabət haqqında qanunu 6 aya qəbul etmək olar, 6 ildir uzadılır” - deyə, bildirdi. Daha sonra o, yüksək faizlə, özü də dollarla kredit götürmüş insanların devalvasiyadan sonra kreditləri əvvəlki qaydada ödəyə bilmədiyini dedi: “400 manat maaş alan şəxsin maaşı 10 faizlik artımdan sonra 410 manat olub. Onun 200 manatını kreditə verir, qalan 200 manatı ilə yaşayırdısa, indi məcburdur ki, 400 manatının hamısını banka ödəsin. Ona görə də əhalini bu vəziyyətdən çıxartmaq üçün müəyyən güzəştlər tətbiq olunsun”.



**Deputat Qənirə Paşayeva** dedi ki, ünvanlı sosial yardım alan ailə kiçik məbləğdə kredit götürən kimi, yaxud övladı ödənişli ali məktəbə qəbul olanda dərhal yardım kəsilir. Xanım deputat bunu düzgün saymadı və ünvanlı sosial yardım verilərkən həmin aztəminatlı ailələri nəzərə almağa çağırdı. Q.Paşayeva məktəb yaşlı uşaqlar arasında siqaret çəkənlərin sayının artdığını dedi və bununla bağlı əlavə tədbirlərə ehtiyac olduğunu vurğuladı.

**Deputat Musa Quliyev dərman vasitələrinin ƏDV-dən azad olunmasını, yaxud ƏDV-nin minimuma endirilməsini zəruri saydı:** “Manatın devalvasiyasından sonra dərman vasitələrinin qiymətində son bir ay ərzində 45-50 faiz artım müşahidə olunur, bu da vətəndaşları çətin vəziyyətə salıb”. M.Quliyev dedi ki, gömrükdə ekspertizə işləri aparılarkən dərmanlar tələb olunan yerlərdə saxlanmalı olduğu halda, gömrükdə şərait olmadığından onların keyfiyyəti də aşağı düşür: “Ona görə də təklif edirəm ki, dərmanlar terminalda deyil, topdansatış obyektlərində normal şəraitdə saxlanılsın, daha sonra isə satışa təqdim edilsin”.

**YAP-dan olan deputat gömrükdəki vəziyyətlə bağlı parlamentə çağırış etdi və vəziyyətin ağır olmasına işarə vurdu:** “Bir aydan çoxdur ki, nə Türkiyə, nə Çindən Azərbaycana mal idxal olunmur. Çünki 36 faiz vergi və gömrük rüsumu tətbiq olunub. Artıq sahibkarlar monopoliyanın bərpa olunmasını arzulayırlar, deyirlər ki, yenə əvvəllər monopolistlərlə dil tapmaq olurdu. Ona görə də gəlin, biz elə bir rejim yaradaq ki, qaş qayırdığımız yerdə göz də çıxartmayaq”.

**Deputat Məlahət İbrahimqızı** ixtisarlardan sonra işsiz qalmış insanın hətta 110 manat maaşı olan bağban vəzifəsinə belə işə götürülməsindən imtina edildiyini bildirdi, bu sahədə qanunvericiliyə dəyişiklik edilməsini təklif etdi. Bələdiyyələr hətta Bakı Şəhər İcra Hakimiyyətinin icazəsi olmadan kiçik işlərə belə, adam götürə bilmirlər. Deputat bu qurumların səlahiyyətlərinin artırılmasını təklif etdi.

**Deputat Sahib Alıyev** işğal olunmuş ərazilər və cəbhə xəttində yaşayan əhalinin xüsusi statusu haqqında qanunların qəbul olunmasını təklif etdi.

**Deputat Bəxtiyar Əliyev** isə “Əgər rəqabət, antiinhisar haqqında qanunlar yoxdursa, neqativlərə qarşı necə mübarizə aparıla bilər? Hansısa sehrli əllərdir Rəqabət Məcəlləsinin qəbuluna imkan vermir” - deyə, tənqidi çıxış etdi.

Son günlərin ən aktual məsələsi, AŞ PA-nın qış sessiyası ilə bağlı da geniş müzakirələr oldu.

“Bu dəfə AŞ PA-da qəbul olunmuş sənəd həddən artıq vacib və əhəmiyyətli sənəddir. Bu da Azərbaycan nümayəndə heyətinin uğurudur. Ancaq bu, ilk dəfə qəbul olunmayıb. Ilk sənəd 2005-ci ildə cənab prezidentin rəhbərliyi ilə qəbul olunub”. **Bunu Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov** plenar iclasdakı çıxışında dedi. O, mətbuatda AŞ PA sessiyası ilə bağlı bəzi yazıları təkzib etdi.

**Deputat Qüdrət Həsənquliyev** isə Gürcüstan nümayəndə heyətinin bəzi üzvlərinin Dağlıq Qarabağla bağlı AŞ PA-nın sessiyasına çıxarılan qətnaməni müdafiə etmədiyini, hətta əleyhinə səs verdiklərini xatırladıb, rəsmi Tiflisin siyasətini sərt tənqid etdi: “AŞ PA-nın sonuncu iclasında da Azərbaycanla bağlı qətnamə müzakirə olunanda Gürcüstan nümayəndə heyətinin 2 nəfər üzvü əleyhinə səs verib. Bunu burada hörmətli Səməd Seyidov və Fazil Mustafa da təsdiq edə bilər. Biz Milli Məclis olaraq son addımlarına görə Gürcüstan tərəfinin diqqətinə çatdırmalıyıq ki, belə strateji tərəfdaşlıq, belə ikiüzlülük və riyakarlıq olmaz!”

**Q.Həsənquliyev qeyd etdi ki, Avropanın ayrı-ayrı institutlarında, o cümlədən Fransada güclü erməni lobbisi var:** “Bu ölkələrdə hakimiyyətlər dəyişsə də, ancaq dövlətin mövqeyi dəyişməyib. Ancaq Elxan müəllimin təşəbbüsü ilə AŞ PA-da "Sərsəng" su anbarı ilə bağlı qətnamənin qəbul edilməsi çox əhəmiyyətli addımdır. Bu qətnamənin qəbulunda Elxan Süleymanovun da böyük əməyi var".

**Deputat Elman Nəsirov da AŞ PA-da böyük uğur qazanıldığını dedi və iki qətnamənin eyni vaxtda müzakirəyə çıxarılmasını taktiki cəhətdən uğurlu addım adlandırdı:** “AŞ PA-dakı müzakirələr bir həqiqəti də üzə çıxardı ki, Baltikyanı ölkələr və Çexiya ilə bağlı əlaqələrimiz zəifləyib. Ona görə də bunun səbəblərini araşdırmalıyıq”. Deputat ATƏT-in Minsk Qrupu ilə bağlı müzakirələrin aparılması üçün yüksək səviyyəli konfrans keçirməyə çağırdı.

**Deputat Hikmət Məmmədov dedi ki, strateji tərəfdaşımız olan Gürcüstan Keşikçi dağı istiqamətindən sərhədlərin dəqiqləşdirilməsi barədə qəti addımlar atmır. Ona görə də rəsmi qurumlar bu fürsətdən istifadə etməlidirlər. Deputat həmçinin Gürcüstandan Azərbaycana turist cəlb edə bilmədiyimizi xüsusi vurğuladı:** “Həmçinin bir vaxtlar biz tibbi məsələlərlə bağlı İrana üz tuturduq, indi də Gürcüstana üz tuturuq”.

**Qeyd edək ki, ilk iclas Milli Məclisin yeni deputatlarının bəzilərinin aktivliyi ilə də diqqət çəkdi. Tahir Kərimli, Rəşad Mahmudov, Elman Nəsirov gündəlikdə bağlı əlavə və təkliflərini səsləndirdilər.**

❑ **Elşad PAŞASOY**



# “XİN xaricdə diplomatik fəaliyyətlə yox, əyləncələrlə məşğuldur”

## **Fazil Mustafadan nazirliyə ağır suçlama:** “Nazirlik yaxşı işləsəydi, bəsirətsiz səfirlər daha bacarıqlı diplomatlarla əvəz olunsaydı, daha yüksək uğur qazana bilərdik”

**AŞ PA-nın qış sessiyası yekunlaşsa da, onun ətrafındakı müzakirələr davam edir. Qeyd edək ki, bu sessiyada Azərbaycanla bağlı iki hesabatın müzakirəsi olub. AŞ PA-nın Siyasi məsələlər komitəsi tərəfindən britaniyalı parlamentar Robert Valterin hazırladığı “Dağlıq Qarabağ və Azərbaycanın işğal olunmuş digər ərazilərində zorakılıq hallarının artması” sənədi qəbul edilməyib. Digəri isə Sosial məsələlər komitəsi adından Bosniya və Herseqovinadan olan deputat Militsa Markoviçin hazırladığı “Azərbaycanın sərhədyanı rayonlarının sakinlərinin qəsdən içməli sudan məhrum edilməsi” adlı hesabat olub və məhz bu sənəd, yuxarıda qeyd edildiyi kimi, qəbul edilib.**

İlkin təəssürat isə Azərbaycanla bağlı taleyüklü məsələlərdə Azərbaycan nümayəndə heyətinin yarıtmaz fəaliyyət göstərməsi ilə bağlıdır. Azərbaycanla bağlı gözləntilərin öz əksini tapa bilməməsi nümayəndə heyətinin mobilizə oluna bilməməsi, parlamentarilərlə işi qurmamasının nəticəsi ola bilərmi? **AŞ PA-dakı nümayəndə heyətinin üzvü, deputat Fazil Mustafa** hesab edir ki, Elxan Süleymanovun böyük zəhmət bahasına gündəmə gətirdiyi Ermənistanın Azərbaycan torpaqlarını işğal faktını sənədlərlə təsdiqləyən Sərsəng su anbarı ilə bağlı qətnamənin qəbul olunması ciddi uğur sayıla bilər. Müsahibimizin fikrincə, budəfəki Azərbaycan nümayəndə heyəti indiyə qədər qazana bilmədiyi ən böyük uğuru qazanıb. Onun sözlərinə görə, sadəcə, bəzi qurumlar tərəfindən guya nümayəndə heyətinin öz qarşısına qoyulan vəzifələri yerinə yetirə bilməməsi ilə bağlı yanlış rəy yaradılmağa çalışılıb: “Bu da azərbaycanlı sayağı paxıllıqdan irəli gələn cəhdlər idi. Bunun cavabı Milli Məclisdə verildi. İlk dəfə idi ki, AŞ PA tarixində Qarabağ məsələsi ilə bağlı Ermənistanı işğalçı dövlət kimi önə çəkən qətnamə qəbul edildi. 6-7 ayrıca bənd göstərildi. Ermənistan işğalçı kimi tanındı. Buna qədər sənədlərdə ”Ermənistan silahlı birləşmələri" kimi qeyd olunurdu. İlk dəfədir Ermənistanı ittiham edən sənəd qəbul olundu. Təbii ki, hər iki sənəd qəbul olunsaydı, daha yaxşı olardı. Amma onun qəbul olunmaması da AŞ PA-nın üzünü açdı. Bu, debat səviyyəsində qaldı. Bundan böyük uğuru başqa cür izah etmək mümkün oldu. Bizə lazım idi ki, ikisindən biri keçsin. Biz maksimalist deyilik ki. Savadsız yanaşırlar ki, Azərbaycan AŞ PA-da uğursuzluğa düçar oldu".

**Müsahibimiz eyni zamanda AŞ PA nümayəndə heyətinin üzvü Sahibə Qafarovanın Avropa Şurası Parlament Assambleyasının Miqrasiya, qaçqınlar və məcburi köçkünlər komitəsinə sədr seçilməsini də ciddi uğur adlandırdı. Bununla yanaşı, F.Mustafa nümayəndə heyətinin əlindən gələni etdiyi halda, Azərbaycanın xarici ölkələrdəki səfirliklərinin fəaliyyətini qənaətbəxş saymadı:** “Bütün səfirlər on illərlə orda oturub. Təsəvvür edin ki, Pribatikadan olan ölkələr bizim lehimizə səs verməyib. XİN xaricdə diplomatik fəaliyyətlə yox, əyləncələrlə məşğuldur. Biz 3 günə gedib o deputatlara nəyi inandıra bilərik? XİN yaxşı işləsəydi, bəsirətsiz səfirlər daha bacarıqlı səfirlərlə əvəz olunsaydı, daha yüksək uğur qazana bilərdik. Elxan Süleymanovun böyük səyləri nəticəsində başarı əldə olundu. Bunun effektini azaltmaq üçün yanlış müqayisələr aparılır”.

Müsahibimiz hesab edir ki, bu məqamda orda iştirak edən vətəndaş cəmiyyəti nümayəndələrini də qınamaq doğru deyil: “Bəzən adlar çəkirlər... Amma inanmıram ki, hətta Azərbaycan hakimiyyətinə qarşı olan QHT rəhbəri bu sənədin qəbulunu niyə istəməsin? Qarabağ hamını birləşdirir. Başqa məsələ olsaydı deyərdim ki, siyasi ambisiyalar var".

❑ **Sevinc TELMANQIZI**

# Prezidentin tənqidinə reaksiyaların ortaya çıxardığı həqiqət

## **Elxan Şahinoğlu:** “Müxalifət liderləri davranışları və aralarındakı ixtilaflarla dövlət başçısını haqlı çıxarırlar”

**Prezident İlham Əliyevin ötən həftə Azərbaycan Gənclərinin Birinci Forumunun 20 illiyi münasibətilə ölkə gənclərinin bir qrupu ilə görüşündə diqqətçəkən məqamlardan biri hazırkı müxalifət liderlərinin ünvanına tənqidi fikirlər səsləndirməsi oldu.**

**İlham Əliyev bildirib ki, Xalq Cəbhəsi-Müsavat hakimiyyəti böyük bəla idi:** “Birincisi, 1992-ci ildə onlar hakimiyyəti qanunsuz yollarla zəbt etmişdilər. O vaxt Dağlıq Qarabağda qanlı döyüşlər gedirdi. Ancaq onların əsas məqsədi nəyin bahasına olursa-olsun hakimiyyətə gəlmək idi. Hətta bəziləri sevinirdilər ki, Şuşa, Laçın işğal altına düşüb və bu, tezliklə əvvəlki hakimiyyətin yıxılmasına gətirib çıxaracaqdır. Hakimiyyəti zəbt edəndən sonra onlar Azərbaycanı faktiki olaraq uçurum kənarına qoymuşdular.

İkincisi, əgər o vaxt Azərbaycana rəhbərlik edənlərin şəxsiyyətlərinə nəzər salsaq, heç bir şərhsiz görərik ki, bu adamlar nəinki ölkəni, bir kolxozu da idarə edə bilməzlər. İndi gənclər təbii ki, bu tarixi, əlbəttə, bilə bilməzlər. Amma baxın, kimlər Azərbaycanı idarə etmişlər. Parlamentin sədri kiçik elmi işçi idi, 11 il ərzində kiçik bir dissertasiyanı müdafiə edə bilməmişdir. Baş nazir, yumşaq desək, ticarətlə məşğul idi, kiçik ticarətlə, özü də o ticarət mövsümi xarakter daşıyır. Dövlət katibi komsomolçu idi - sonradan flyuger kimi əqidəsini dəyişmiş və xalq hərəkatına qoşulmuş birisi. Ondan sonrakı dövrdə də bir neçə dəfə əqidəsini dəyişmişdi. Hətta 1990-cı illərin ortalarında hakimiyyətlə sıx əlaqədə olaraq parlamentdə də təmsil olunurdu. Ancaq silahdaşları, yoldaşları onu yaxşı tanıyırlar. Ağır vaxtda öz liderinə xəyanət etmiş insan əlbəttə ki, yüksək keyfiyyətlərə malik ola bilməz.

Yəni budur, Azərbaycan Xalq Cəbhəsi-Müsavat hakimiyyətinin öndə gedənləri. Bu adamlar ölkəni necə idarə edə bilərdilər?! Hakimiyyətə gələndən sonra dərhal onlar bir-biri ilə mübarizəyə başlamışlar. Bu mübarizə və eyni zamanda, xalq tərəfindən onlara olan inamsızlıq, mənfi münasibət nəticəsində cəmi 1 il hakimiyyətdə qala bilmişlər. Ondan sonra onlar üçün vəziyyət gərginləşəndə-1993-cü ilin yaz-yay aylarında onlar bütün vəzifələrdən gedərək bəziləri ölkəni tərk etmişlər, qaçıb gizlənmişlər və onların dırnaqarası cəsarəti artıq aradan getmişdir".

Məlum olduğu kimi, AXC-Müsavat iqtidarının Milli Məclis sədri İsa Qəmbər, baş naziri Pənah Hüseyn, dövlət katibi Əli Kərimli olub. Ölkə başçısının ad çəkməsə də, onları nəzərdə tutduğu aydındır. Qeyd olunan siyasətçilər və onlara yaxın şəxslər mediada, sosial şəbəkədə prezidentin bir neçə cümləlik fikirlərinə ard-arda, hətta iri həcmli yazılarla cavab veriblər.

**Pənah Hüseyn qeyd edib ki, əgər 2016-cı ildə prezident İlham Əliyev 23 il əvvəl, 1992-93-cü illər iqtidarına qarşı əks-təbliğata ehtiyac duyub onu şəxsən özü başladırsa, deməli, iqtidarın vəziyyəti düşünüldüyündən də ağırdır.**

**P.Hüseyn bildirib ki, AXC-Müsavat iqtidarı tarixi fenomen olaraq ona münasibətdə ən çətin, subyektiv, tənqidi dövrü arxada qoyub və hər yeni gün tarix baxımından onun xeyrinə işləməkdədir:** “Mövcud iqtidar belə bir sınaqdan necə çıxacaqdır, ümumiyyətlə, çıxa biləcəkmi? Bu məsələni yenə tarixin öhdəsinə buraxaq...Ticarət ümumiyyətlə peyğəmbərimizin savab saydığı peşələrdəndir və ölkədə yüz minlərlə adam bu işlə məşğul olub ailəsinə halal çörək qazanır. Ancaq tutaq ki, qarpız satmışam, nə olsun? Mən tam səmimi deyirəm, hətta sovet dövrünün son illərindəki qıtlıq dövründə belə mən nə iri, nə xırda ticarətlə, o cümlədən qarpız alveri ilə məşğul olmamışam, bunu etməyə ehtiyacım olmayıb. Yenə tam səmimi deyirəm ki, yaşadığımız bu böhranda ailəmi, nəvələrimi halal çörəklə təmin etmək naminə, ehtiyac yaransa, başqa bir şey əlimdən gəlməsə onu da edərəm və bundan utanc yox, şərəf duyaram”.



**İsa Qəmbər isə özünün facebook səhifəsində yazıb:** “Bu gün biz-Milli Strateji Düşüncə Mərkəzi gələcəyə-2018-ci ilə baxdıq, İlham Əliyev keçmişə-1992-ci ilə baxdı. Olsun. Keçmiş də, gələcək də bizimdir!”

Əli Kərimliyə yaxın media orqanlarında isə ölkə prezidentinə kəskin cavablar yazılmaqla yanaşı, onu AXCP sədri ilə debata dəvət ediblər.

Bəzi ekspertlərin fikrincə, müxalifət düşərgəsindən bir neçə cümləlik tənqidi fikrə bu qədər reaksiya adekvat deyil. Prezidenti bütün il boyu sərt tənqid edən, ağır ittihamlar ünvanlayan siyasi liderlər ildə bir dəfə bir-iki cümlədən ibarət tənqidə “qonaq” edilir. Müxalif liderlər buna bunca əndişəli cavablar verirsə, tənqidə dözümsüz olduqlarını ortaya qoymuş olurlar.

**Müstəqil siyasi ekspert Elxan Şahinoğlu prezidentin rəqib siyasi qüvvələri tənqid etməsinin siyasi mübarizə olduğunu bildirdi və qeyd etdi ki, bütün dünyada bu baş verən haldır:** “Prezidentin nəzərdə tutduğu siyasi liderlərin və onlara yaxın adamların bir çıxışa verdiyi reaksiyalar, cavablara gəlincə, hesab edirəm ki, bir neçə cümlədən ibarət tənqidi fikrə bu qədər hay-küylü reaksiya dözümsüzlükdən irəli gəlir. Düşüncəmə görə, daha məqbul variant bu idi ki, həmin siyasi liderlər mətbuat konfransı çağıra və gənclərlə bir görüş keçirərdi və hakimiyyətdə olduqları bir il ərzində həyata keçirdikləri işlər, uğurlarla bağlı çıxış edərdi. Sonra da gənclərin suallarına cavab verilərdi və indiki vəziyyətdən çıxış yolları göstərilərdi. Bu, olardı prezidentin tənqidi çıxışına sanbalı adekvat cavab. Dövlət başçısı tənqid etdiyi şəxslərin hakimiyyətdə olanda və sonrakı müddətdə bir-birləri ilə yol getmədiyini də dedi. Məhəmməd Əmin Rəsulzadənin anadan olduğu gün onun Novxanıdakı abidəsinin önünə hər partiyanın, hər siyasi liderin ayrı-ayrılıqda getməsi, hətta bu cür gündə də birgə tədbirə qatılmamaları məgər yaxşı haldır?

Həmin siyasi liderlər bu cür davranışları və bəzən aralarındakı ixtilaflarla dövlət başçısını o fikirlərində haqlı çıxarırlar. Prezident deyir ki, bunlar öz aralarında yola getmir. Baxsaq görərik ki, bəzi müxalifət liderləri həqiqətən heç öz aralarında yola getmirlər. Hakimiyyət də bu vəziyyətdən çox ustalıqla istifadə edir. Siyasi liderlər müəyyən addımları ilə prezidenti müəyyən qədər haqlı çıxarırlar. Yalnız sosial şəbəkədə status yazmaqla çox da irəli getmək olmaz. Siyasi liderin əsas işi status yazmaqdan ibarət deyil. Siyasi liderin insanları öz ətrafında toplamaq cazibəsi olmalıdır, bölgələrə gedilməlidir, isti evdə və ofisdə oturub gözləməklə dəyişiklik baş verməz".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 24 (6345) 2 fevral 2016

# YAP bəzi partiyaların bağlanmasını istəyir

## Siyavuş Novruzov: "Artıq partiya alqı-satqı vasitəsinə çevrilib, hərə bir partiya alıb, qoyub evinə, vaxtı gələndə ondan istifadə edir"

**""Siyasi partiyalar haqqında" Qanuna dəyişiklik edilməlidir. Biz bununla bağlı təkliflərimizi hazırlayıb təqdim edəcəyik". Bunu Milli Məclisin yaz sessiyasının ilk iclasında deputat Siyavuş Novruzov bildirib.**

YAP-çı deputat əlavə edib ki, bu təşəbbüsü zəruri edən konkret səbəblər var: "Əvvəla, büdcədən maliyyələşən və maliyyələşməyən partiyalar şəffaflığın təmin olunması üçün Mərkəzi Seçki Komissiyasına hesabat verməlidir. Lakin onlar buna əməl etmir, qanunda da məcburiyyət yoxdur. Ya da partiya ağ kağız göndərir ki, maliyyə gəliri yoxdur. Lakin baxırsan ki, neçə cangüdəni, maşını, ofisi var, bəs bu gəlirlər haradandır? Eyni zamanda partiyalararası gərginlik var, bunlar tənzimlənməli və qaydaya salınmalıdır. Partiyalar var ki, 20 ildən artıqdır qeydiyyatdan keçib. Hər bir partiya hüquq və vəzifələrini yerinə yetirmirsə, onda xarici ölkələrdə olduğu kimi, həmin partiyalar ləğv edilməlidir. Artıq partiya alqı-satqı vasitəsinə çevrilib, hərə bir partiya alıb, qoyub evinə, vaxtı gələndə ondan istifadə edir".



**S.Novruzov reproduktiv sağlamlıq haqqında qanun layihəsindən bəhs edərkən deyib ki, orda bəzi müddəalar qəbulolunan deyil:** "Mən Milli Məclisin İctimai birliklər və dini icmalar komitəsinin sədriyəm. Biz Allahın işinə qarışa bilmərik. Təəssüflər olsun ki, bəziləri bu müddəalarla Allahın işinə müdaxilə edir. Burda olan bəzi məqamlar qanunda öz əksini tapa bilməz, bu, Azərbaycan xalqının mentalitetinə də uyğun deyil".

**S. Novruzov bildirdi ki, ünvanlı sosial yardıma baxış da dəyişməlidir:** "Bu, o demək deyil ki, imkansız, kasıb adam hər il bu yardımı almalıdır. Bu, insanların ayağa qalxması üçün köməkdir. Neçə illər insanlara verdiyimiz bu yardımlar havaya atılıb. Bu məsələyə baxış dəyişməlidir. Ünvanlı sosial yardım bir illik verilməlidir və o insanın işlədiyi sahəyə tətbiq olunmalıdır. Oradan gələn gəlir ailə vəziyyətinin yaxşılaşmasına xidmət etməlidir. Yoxsa ələbaxımlılıq öyrətmək düzgün deyil".

**İnformasiya təhlükəsizliyi ilə bağlı prezidentin fərmanına diqqət çəkən S. Novruzovun sözlərinə görə, bununla bağlı bəzi qanunlara dəyişiklik edilməlidir:** "Bir mənbə Azərbaycan ordusu haqqında yazır, yarım saatdan sonra çıxarır. Bütün saytlar ona istinadən yazı verir və onlarda yazı qalır. Lakin məlum olur ki, bu informasiya xaricdə hansısa mənbədən yerləşdirilib və bundan mediamız istifadə edib. Bununla bağlı ciddi addımlar atılmalıdır".

❑ **E.PAŞASOY**

# Müsavat rəhbərliyi ilə rifahçılar arasında yeni gərginlik

## Qubad İbadoğlu: "ADR Hərəkatı heç bir siyasi partiyanı, o cümlədən Müsavatı məhkəməyə verməyib"

## Elman Fəttah: "Rifahçıların Müsavatın məhkəmə verilməsinin onlara aidiyyəti olmamasını iddia eləməsi riyakarlıqdır"





**Müsavat Partiyasının sonuncu qurultayının nəticələrinin ləğvi tələbi ilə Azərbaycan Demokratiya və Rifah Hərəkatının bir qrup üzvünün müraciətinə məhkəmə baxışı davam etdirilir. Proses davam etdikcə, tərəflər arasında gərginliklər yaşanır. Rifah Hərəkatının sədri Qubad İbadoğlu sosial şəbəkədə yazıb ki, Müsavat Partiyasının son rəhbərliyi ilə keçmiş və hazırkı sıravi müsavatçılar arasında cərəyan edən məhkəmə prosesinin cəmiyyətə Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatı - Müsavat Partiyası çəkişməsi kimi təqdim edilməsi yanlışdır: "ADR Hərəkatı heç bir siyasi partiyanı, o cümlədən Müsavatı məhkəməyə verməyib. Biz gələcəyə baxırıq, amalımız demokratik, azad və müstəqil Azərbaycandır. Çox təəssüf ki, hazırkı rəhbərlikdə təmsil olunan Müsavat Partiyası cəmiyyətin bütün kəsimlərinin etibarını itirdiyinə görə bizim mübarizəmizin vizyonundan kənardadır. Müsavat Partiyası təmsilçilərinin məhkəmədə və mətbuatda bu məhkəməni ADR Hərəkatı ilə bağlamaq cəhdləri həqiqi müsavatçıların partiyadan kənarlaşdırılmasına, partiyadaxili demokratiyanın pozulmasına yanlış hüquqi və siyasi don geyindirmək cəhdinin təzahürüdür. ADR Hərəkatının rəhbərliyi müxtəlif partiyaları təmsil edən üzvlərinin şəxsi qərarlarına hörmətlə yanaşır və belə məsələlərə qarışmır. Mənim şəxsi mövqeyimə gəlincə, Müsavatın hazırkı qeyri-legitim rəhbərliyi ilə mübarizənin hakimiyyətin nəzarətində olan müstəvidə aparılmasını məqbul hesab etmirəm, inanıram ki, vaxt gələcək, onlara ən böyük divanı tarix quracaq.**

Unutmayın ki, keçmişlə uğraşanın gələcəyi olmaz! Şərəfli keçmişi olan Müsavat dəftəri ADR Hərəkatı üçün artıq qapanmışdır!"

**Q.İbadoğlunun fikirlərinə onun birinci müavini Vurğun Əyyub dəstək verib:** "Şikayət edənlər illərlə Müsavat Partiyasında can qoymuş, əmək sərf etmiş insanlardır. Onlar haqsızlığa qarşı çıxırlar! Haqlarını tələb edirlər. Bunu məqsədli şəkildə ADR Hərəkatı ilə Müsavat Partiyası arasındakı çəkişmə kimi qələmə vermək çirkin niyyətlərdən xəbər verir".

Müsavat Partiyası başqanının müavini Elman Fəttah isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, rifahçıların Müsavat Partiyasının məhkəməyə verilməsinin onlara aidiyyəti olmamasını iddia eləməsi riyakarlıqdır. Çünki Müsavat Partiyasını əsassız olaraq məhkəməyə verən şəxslərin bir çoxu nəinki Rifahın sıravi üzvləridir, həm də Rifahın rəhbərləridir: "Müsavat Partiyasından məhkəməyə şikayət vermiş şəxslər 11 nəfərdir. Onların hamısı Rifah Hərəkatının Məclis üzvləridir, bir nəfəri Qubad İbadoğlunun müavinidir, biri həmin qurumun hansısa aparatının rəhbəridir, başqa biri NTK adlı bir strukturunun rəhbəridir. Bütövlükdə bütün ADR rəhbərliyi isə bu məhkəmə prosesini dəstəkləyən açıqlamaları dəfələrlə veriblər. Qubad İbadoğlu sosial şəbəkədə "Rifah Hərəkatı heç bir siyasi partiyanı, o cümlədən Müsavatı məhkəməyə verməyib" yazısında belə, Müsavatı məhkəməyə verən şəxsləri sanki müdafiə edir, onlara saygı ilə yanaşır. Necə ola bilər ki, sən bir tərəfdən deyirsən ki, biz heç bir partiyanı məhkəməyə verməmişik, digər tərəfdən isə rəhbərlik etdiyin qurumda rəhbərlikdə təmsil olunan bu şəxslərin hərəkətini saygı ilə qarşıladığını deyirsən. Bu, riyakarlıqdır və məsələ tamamilə aydındır. Həm Müsavata, həm AXCP-yə qarşı hakimiyyətin siyasəti məlumdur. Hər iki partiyaya qarşı yaradılmış qondarma təşkilatlar, Qubad İbadoğlu və Razi Nurullayev hakimiyyətin bu iki partiyaya qarşı repressiyasının vintləridir. Bu işi icra eləyə-eləyə susub dayanmaq əvəzinə, hələ bir də yüksək səslə "məhkəməyə müraciət etməmişik" bəyanatının mən bilmirəm adı nədir. Bu heç bir özünə hörmət edən insana yaraşmayan davranışdır. Bu davranış məşhur "Cəbiş müəllim" filmindəki hinduşka sahibinin bazarda hinduşkadan imtinası situasiyasına bənzəyir. Dəvəquşu başını soxur quma, elə zənn edir ki, heç yeri görünmür. Rifahın indi "Müsavatdan məhkəməyə biz müraciət etməmişik" deməsi həm də bu deyimlə uyğun gəlir. Heç bir əsaslandırmaya ehtiyac yoxdur, hər kəsə aydındır ki, Müsavatdan məhkəməyə şikayət ərizəsində imzası olanlar rifahçılardır. Müsavatı məhkəməyə vermiyin sifarişçisi hakimiyyət, icraçısı Rifah rəhbərliyidir".

❑ **E.SEYİDAĞA**

# Moskva Moldova hadisələrini Azərbaycana keçirə bilərmi?

## Ekspert: "Bizim kommunistləri də Moskvada tez-tez görmək mümkündür..."

**Moldovada siyasi vəziyyət getdikcə gərginləşir. Kommunistlərin təşkil etdiyi antihakimiyyət mitinqləri böyüməkdədir. Ruspərəst müxalifət Pavla Filipin formalaşdırdığı qərbpərəst hökumətə etiraz edərək parlamentin buraxılaraq növbədənkənar seçkilərin keçirilməsini tələb edir.**



Moldovanı Moskvanın qarışdırdığı getdikcə daha aydın şəkildə görünməkdədir. Rusiya telekanalları antihökumət mitinqlərini həvəslə təbliğ edir. Rusiyanın Moldova sosialistləri və kommunistlərini müdafiə etdiyi sezilir.

Belə görünür ki, Moskva keçmiş SSRİ respublikalarında revanşa Moldovada hakimiyyət dəyişikliyinə nail olmaqla başlamaq istəyir. Bəs Rusiya Moldovadakı prosesin Azərbaycana da keçməsinə çalışa bilərmi?

**Politoloq Qabil Hüseynli** öncə bildirdi ki, Moldova hadisələrini təhlil etdikdə Rusiyanın hədəfində özünün sərhədi boyunca avtoritar rejimlərin sayını çoxaltmaq, onların ittifaqını yaratmaq planının durduğu ortaya çıxır: "Moldova son zamanlar Avropa Birliyi ilə assosiativ üzvlük barədə Ukrayna kimi müqavilə imzalamış dövlətlərdən biridir və qərbyönümlü siyasəti özünün əsas hədəfi kimi seçmişdi. Amma Moldovada keçmiş üçün xiffət keçirən və bu keçmişi Kommunist Partiyasının timsalında geriyə qaytarmağa çalışan qüvvələr var. Həmin qüvvələr kifayət qədər aktivdir, maliyyə, insan resurslarına malikdir. Onlar üçün bu aktivliyi, sərbəstliyi yaradan Moldovada uzun müddətdir mövcud olan demokratik siyasi mühitdir. Onlar bu mühitdən istifadə edərək ayaqlanıblar. Amma eyni prosesləri Azərbaycanda həyata keçirmək, demək olar, mümkünsüzdür. Əvvəla, Rusiya üçün bu arzuedilən deyil. Yəni Azərbaycandakı hazırkı siyasi hakimiyyət Rusiya ilə yaxın dostluq əlaqələrindədir, ona görə də Moskva Moldovadakı prosesin buraya da transfer olmasında maraqlı görünə bilməz. Bu nöqteyi-nəzərdən Rusiyanın Azərbaycanda təkcə milli azlıqlardan başqa hansısa siyasi qüvvəyə istinad edib ölkədə hakimiyyəti dəyişmək fikrinə düşməsi inandırıcı deyil. Üstəlik də Azərbaycandakı kommunist partiyalarının vəziyyətinin necə olduğunu hamı yaxşı bilir. Azərbaycanda bir neçə kommunist partiyası var. Ən azından üçünü biz tanıyırıq. Onların heç biri o birisi ilə yol getmir. Ən qəribəsi odur ki, bu kompartiyalar öz istiqamətlərini daha çox Rusiya Kommunist Partiyasına tərəf yönləndirirlər. Yəni milli dəyərlərə deyil, Züqanovun gizli millətçi rus baxışlarını özündə ehtiva edən baxışlara daha çox meyllənirlər. Ona görə də bizim kommunistləri Moskvada öz həmkarlarının məclislərində tez-tez görmək mümkündür".

**Politoloq vurğuladı ki, bu gün xalq arasında kommunistlərin ciddi sosial dayaqları yoxdur. İnsanlar kommunistlərin vəd etdikləri sosialist gələcəyinə inanmırlar və onun arxasınca getmək fikrində deyillər. Ona görə də Rusiya Azərbaycanda qarışıqlıq yaratmaq fikrinə düşərsə, çox zəif ehtimalla bəzi milli azlıqların nümayəndələrinə istinad edə bilər:** "Lakin o milli azlıqlar da tamamilə Azərbaycan xalqı ilə qaynayıb qarışıb və demək olar ki, onlar da vahid Azərbaycan xalqının tərkib hissəsinə çevriliblər. Odur ki, Azərbaycanla Moldova arasında hər hansı bir paralel aparmaq çox çətindir".

**Q.Hüseynli Moldovadakı hadisələrin xarakterinin də Azərbaycandakı situasiyanın və hadisələrin xarakteri ilə o qədər də üst-üstə düşmədiyini düşünür:** "Moldovada pis-yaxşı oturuşmuş bir demokratiya var. Bu demokratiya əhalinin etiraz hüquqlarından istifadə etməsinə, ayağa qalxmasına, hakimiyyətlə qarşı-qarşıya gəlməsinə şərait yaradır. Azərbaycanda isə əhali Moldovadakı kimi aktiv deyil, passivdir. Siyasi partiyalar da Azərbaycanda passivdir. Hakimiyyətin mövqeyi isə güclüdür. Bir də ki, Azərbaycanda maddi durum Moldovadakından yaxşıdır. Son vaxtlar müəyyən islahatlara başlanması da əhali arasında müsbət rezonans doğurmaqdadır. Düzdür, ayrı-ayrı bölgələrdə əhalinin etirazları ara-sıra baş versə də həmin etirazları lokallaşdırmaq və aradan qaldırmaq çətin olmur. Ona görə də hələ ki Azərbaycanda Moldova tipli qarşıdurma üçün ciddi imkan və şərait görünmür".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 24 (6345) 2 fevral 2016



# Ucuz kriminal

Zamin HACI
zaminhaci@gmail.com

"Altda qalanın canı çıxsın"
*(Azərbaycan ata sözü)*

**Çindən pul istəyirsən, vermir. Dünya Bankı, BVF kimi süləngi təşkilatlar belə adama dirsək göstərir, deyirlər, islahat elə, kredit verim. Çətindir. Əlac qalır köhnə dostlara - ərəb şeyxlərinə xahişə, minnətə gedəsən. Onlar da verməsə büdcənin başını nə ilə bağlayacağıq, məlum deyildir. Zəmanənin evi yıxılsın, vaxt var idi biz Belarus kimi dilənçiyə uf demədən iki dəqiqənin içində 200 milyon dollar borc verirdik, hələ deyirdik, əşşi, haçan olsa verərsən, lap istəsən ye, iç, kef elə, qaytarmasan da olar. İndi özümüz qapı-qapı düşmüşük.**

Xaricə göndərilənlər də yarıtmır. Səməd Seyidov neçə il Strasburqu su yoluna döndərdi, qalan xatirəsi oğurlanmış kürk oldu. İndi AŞ PA-dakı kolxozçu-zəhmətkeş desantımızın təzə şefi şalvarını oğurlatmasa min şükür.

Bu arada, may ayında qayıracağımız islamiada oyunlarından kədərli xəbər almışam, orda klassik basketbol yarışı olmayacaq. Üç nəfərlik balaca basketbol olacaq. Əlbəttə, bunu krizisə bağlamaq yanlışdır, çünki heç Avropa Oyunlarında da klassik basketbol üçün normal meydan tapılmadı, o vaxt da bala-basketbol oynamışdıq. Ancaq qorxuram islamiada vaxtına pul o qədər qurtarsın ki, üçnəfərlik basketbola da imkan olmasın, eləcə hər komanda 1 oyunçu ilə uzaqdan səbətə top atsın. Səbətə şükür. O da deşilsə, dalından gilas tökülsə neynərik?

Əslində ayrı mövzuda yazacaqdım, bu namərd pul məsələsi özünü araya dürtdü. Elə o yazacağım da pulla bağlıdır, guya ayrı nə gözləyirdiniz? Bir azərbaycanlını dünyanın gəlmişi-keçmişi, fəlsəfi söhbətlər, nə üçün yaşayırıq tipində suallar narahat etməz ki. Bizə ancaq pul maraqlıdır.

Uzun sözün qısası, internetdə bir video gördüm: Rusiyada bir milyarder balası lotuluq eləyib, maşınını dayanacaqda saxlayıb, yol keçənlərə özünü əlil kimi təqdim edir, deyir maşından düşə bilmirəm, xahiş edirəm bu pulu aparın, dayanacaq işçisi xırdalasın, ödənişi çıxsın, qalanını mənə gətirin. 5 min rubl verir. Pulu alanların hamısı aradan çıxır ("aradan cırırlar" - daha düzü belədir).

Mən valyuta kurslarına baxdım, 5 min rubl bizim manat hesabla hazırda təxminən 100 manatdır. Amerika puluyla desək, 50 dollar. Təsəvvür edin, Putin Rusiyası elə kasıb, rəzil gününə salınıb ki, insanlar əlil şəxsin əlli dollarını oğurlamaqdan çəkinmirlər. Belə sosial eksperimentlər dünyada çox keçirilir. Örnək üçün, yadıma gəlir, İsveçdə küçəyə 20 avro pul atmışdılar, tapanlar hamısı bunu lazımi orqanlara təhvil vermişdi. Yaponiyada zəlzələ, sunami olanda yüzminlərlə ev dağılmışdı, ancaq polis bir kriminal, bir oğurluq qeydə almamışdı! Hətta insanlar sel çəkiləndən sonra uzun müddət tapdıqları seyfləri, pulları, qiymətli əşyaları yiyəsinə çatdırmaq üçün dövlətə verirdilər.

Mən rusların acı durumuna baxanda fikirləşdim, görəsən, eyni halla biz üzləşsək nə edərdik. Şübhəsiz, azərbaycanlılar 100 manatı xırdalamağa göndərən əlilin pulunu nəinki çırpışdırardılar, hətta qırağa-bucağa baxıb əlilin tam köməksiz olduğuna əmin olandan sonra onu maşından düşürüb yerə atardılar və maşını da qaçırardılar!

Bunu milli natamamlıq kompleksi-zad adlandırmağa tələsməyin. Yekə-yekə danışmağı mən də bacararam, ancaq hansı dövlətimiz var? Əlillərin, yetimlərin, kasıbların, imkansızların haqqını basıb yeyən hakimiyyətimiz bəyəm Yaponiyadan gəlib?

Yanvarda Bakıda bir gənci, anasını çəkiclə öldürdülər. Amansız qətl idi. Təzəlikcə işin üstü açılıb: qatil evdə təmir aparan usta imiş. 400 manata yaxın pulu oğurlamaq üçün iki nəfəri öldürüb!

Dünən isə Tovuzda bir evdən 20 min manat və... gözmuncuğu oğurlanıb! Sanki oğrular məzələnirlər, "gözmuncuğu qoruya bilmədi" işarəsi verirlər. Cinayətkarlığımız da qeyri-ciddidir. Mənasızdır.

Elə bil yüz ilə yaxın ömür sürürsən, öləndə ancaq kiməsə söyüş söydüyünə görə səni yada salırlar.

# Beynəlxalq münasibətlərdə "buzların əriməˮ dövrü




# İqtidarın yeni Qərb strategiyası-təfərrüat

## Azərbaycanın təmsil olunduğu və əməkdaşlıq etdiyi bütün təşkilatlarla əlaqələrində "yeni səhifə" açmaq tapşırığı verilib; ATƏT-in Bakı ofisinin yenidən bərpa olunacağı xəbəri yayılıb; beynəlxalq təşkilatlarla münasibətlərin tənzimlənməsi prosesinə bəzi QHT-lər də cəlb edilir...

**"Dağlıq Qarabağda və Azərbaycanın digər işğal olunmuş ərazilərində gərginliyin artması" qətnaməsinin AŞ PA-nın qış sessiyasında qəbul edilməməsi ətrafında yaranmış ajiotaj səngimir. Bunu ölkə diplomatiyasının, xüsusən Xarici İşlər Nazirliyinin uğursuzluğu kimi qiymətləndirənlər də var, Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin fəaliyyətinin zəif olması ilə izah edənlər də.**

Xatırladaq ki, Böyük Britaniyadan olan məruzəçi Robert Uolterin hazırladığı "Dağlıq Qarabağ və Azərbaycanın digər işğal olunmuş ərazilərində zorakılığın artması" qətnaməsi 70 əleyhinə, 66 lehinə olmaqla *(45 nəfər bitərəf)* qəbul edilməyib.

Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bu uğursuzluq səbəbindən vəzifəsindən azad olunması bağlı məlumatları təkzib edib. S.Seyidov bildirib ki, səhhətində yaranan problemlərə görə AŞ PA-nın qış sessiyasına gedə bilməyib və onu nümayəndə heyətinin sədr müavini Vüsal Hüseynov əvəz edib. XİN isə mətbuat xidməti səviyyəsində sənədin qəbul edilməməsinin məsuliyyətini Minsk Qrupu həmsədrlərinin üzərinə qoyub, bu uğursuzluğu onların tutduğu qərəzli mövqe ilə izah edib.

***

Məlumatlara görə, iqtidar bir müddətdir ki, üzv olduğu və əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlarla bağlı yeni strategiya üzərində işləyir.

Sirr deyil ki, Qərblə münasibətlərin daha da kəskinləşdiyi ötən ildə iqtidar beynəlxalq qurumlarla qarşıdurmaya getdi-Avropa Birliyi, Avropa Parlamenti, ATƏT, eləcə də digər Qərb institutları ilə "soyuq müharibə"yə başladı. Avropa Parlamentinin iqtidarla bağlı sərt qətnaməsindən sonra Milli Məclisdə "Avronest" Parlament Assambleyasından çıxmaqla bağlı qərar qəbul olundu. Az sonra ATƏT-in Bakı ofisi "ölkənin maraqlarına zidd olan siyasi xətt" səbəbindən bağlandı. Azərbaycanın Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramında iştirakı da xeyli zəiflədi...

Belə bir vəziyyətdə iqtidarın vəziyyəti dəyişmək üçün yeni təşəbbüsləri barədə iddialar yayılıb. Həmin iddialara görə, müvafiq dövlət qurumlarına Azərbaycanın təmsil olunduğu və əməkdaşlıq etdiyi bütün təşkilatlarla əlaqələrində "yeni səhifə" açmaq tapşırığı verilib. Prezidentin Murad Nəcəfbəylini Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi vəzifəsindən geri çağıraraq, onun yerinə daha təcrübəli diplomat olan Vaqif Sadıqovu təyin etməsi də bu strategiyanın tərkib hissəsi kimi göstərilir.

ATƏT Parlament Assambleyası sədrinin müavinləri Georgi Tsereteli və Kent Harstedtin başçılıq etdiyi nümayəndə heyəti yanvarın sonunda Bakıya səfər edib. Prezident və xarici işlər naziri ilə görüşlərdən sonra mediada ATƏT-in Bakı ofisinin yenidən bərpa olunacağı xəbəri yayılıb. Rəsmilər hələ ki bu barədə dəqiq bilgi vermirlər, amma bildirilir ki, yaxın aylarda Bakı ofisinin fəaliyyəti yenidən bərpa ediləcək, hətta bununla bağlı artıq sənədləşmələr də başlayıb. O cümlədən həm rəsmi Bakıdan, həm də Brüsseldən Azərbaycanın Avropa Birliyi ilə əlaqələrinin genişlənməsi və "Şərq Tərəfdaşlığı" proqramında iştirakının davam etməsinin vacibliyi ilə bağlı müsbət mesajlar eşidilməkdədir.

***

Daha bir iddia isə iqtidarın beynəlxalq təşkilatlarla münasibətlərinin tənzimlənməsi prosesinə bəzi QHT-lərin də cəlb edilməsidir. Məlumdur ki, son aylar Qərb təşkilatları ilə əməkdaşlıq edən QHT-lərə ciddi təzyiqlər olub, bəzi QHT rəhbərləri tutulub, bir çoxunun isə bank hesablarına həbs qoyulub. Bu məsələyə görə hətta ABŞ prezidenti Barak Obama da "Azərbaycan kimi yerlərdə qanunlar QHT-lərin fəaliyyətini inanılmaz dərəcədə çətinləşdirir", demişdi.

Həbsdəki QHT rəhbərlərinin azadlığa buraxılacağı ilə bağlı hələ ki məlumat yoxdur. Amma bildirilir ki, hökumət beynəlxalq qurumlarla yaxşı əlaqələri olan, mötəbər qurum kimi qəbul edilən QHT rəhbərləri ilə anlaşma ərəfəsindədir. İddia olunur ki, onların bəzilərinin bank hesablarından həbs götürülüb. Bu, "Azərbaycanın mənafeyi naminə" atılan addım kimi izah edilir, onlardan ölkəmizin beynəlxalq nüfuzunun möhkəmlənməsində fəaliyyət göstərmələri istənilir.

Mövzu ilə bağlı bilgili mənbəmiz hətta deyib ki, bir QHT rəhbərinə son parlament seçkilərində boş qalmış dairədə namizədliyinə "yaşıl işıq" yaradılacağı vədi belə verilib.

Bu xəbərlərin nə dərəcədə səhih olduğunu indilikdə iddia edə bilmərik. Amma ötən həftə prezident İlham Əliyev də ölkə gənclərinin bir qrupu ilə görüşündə Azərbaycanın beynəlxalq təşkilatları ilə münasibətlərinə xüsusi yer ayırıb. Prezident deyib ki, Azərbaycanı dünyada daha da geniş şəkildə təmsil etmək üçün, eyni zamanda kadrların təcrübə toplamaları baxımından beynəlxalq təşkilatlarda təmsilçiliyimizin olması çox önəmlidir. "Xarici İşlər Nazirliyinə və Prezident Administrasiyasına göstəriş verilib ki, biz çalışmalıyıq, gənclərimiz, xüsusilə gənc mütəxəssislərimiz bütün beynəlxalq təşkilatlarda təmsil olunsunlar, beynəlxalq məmur statusuna malik olsunlar və orada çalışsınlar".

***

Azərbaycan müstəqillik əldə edəndən sonra beynəlxalq təşkilatlara qoşulmaqla mövcud problemlərin dünyanın gündəmində olması və həlli istiqamətində müəyyən addımların atılmasına nail olub. İqtidar uzun sürəcəyi gözlənilən postneft dövründə bu kimi təşkilatlarla daha sıx və hərtərəfli əməkdaşlığı vacibliyini anlayır. Bu səbəbdən də yeni strategiyanın ölkənin daxilində də öz müsbət təsirini göstərəcəyi, beynəlxalq qurumlarla münasibətlərdə əsas əngəl olan problemlərin, o cümlədən siyasi məhbuslarla bağlı məsələnin də öz həllini tapacağına ümidlər yaranıb.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 24 (6345) 2 fevral 2016

# Azərbaycan prezidenti qısa zaman sonra Gürcüstana yenidən niyə gedir?



## Bakı və Tiflis yeni həssas dönəmdə bir daha "əqrəbləri tutuşdurmaq" zorundadır; AŞ PA-dakı dəstəyin ardınca gürcü müdafiə nazirinin Ermənistana səfəri nəyə hesablanıb?..

**"Azərbaycan prezidenti İlham Əliyevin Gürcüstana səfərinə hazırlıq gedir". Bu barədə APA-nın Gürcüstan bürosuna yeni baş nazir Giorgi Kvirikaşvili bildirib. O, hazırda səfərin detallarının dəqiqləşdirildiyini söyləyib.**

Qeyd edək ki, baş nazir daha əvvəl verdiyi açıqlamada Azərbaycan prezidentinin yaxın gələcəkdə Gürcüstana səfər edəcəyini bildirmişdi. O, bununla bağlı İlham Əliyevlə Davosda keçirilən görüşdə razılığa gəlindiyini bəyan edib.

Azərbaycan prezidentinin Gürcüstana səfərinin tarixi hələlik məlum deyil. Lakin İlham Əliyevin cəmi 3 ay öncə - ötən il noyabrın əvvəllərində qonşu ölkəyə iki günlük rəsmi səfər etməsini nəzərə alsaq, maraqlı sual ortaya çıxır: qısa zaman sonra prezidentin yenidən Gürcüstana yollanmaq niyyəti hansı hədəflərə hesablana bilərdi?

Doğrudur, sonuncu səfər zamanı Gürcüstanın baş naziri postunu indiki baş nazirin sələfi İrakli Qaribaşvili tuturdu, ancaq çətin ki, yeni ziyarət sırf tanışlıq xarakteri daşısın. Təbii ki, ortada daha ciddi mətləblər var. Onlardan biri sözsüz ki, son zamanlar rəsmi Tiflisin qaz mənbələrinin diversifikasiyası adı ilə "Qazprom"la apardığı, lakin hələ ki nəticəsi olmayan danışıqlar ətrafında yaranmış situasiya ilə bağlı ola bilər.

Bir sıra analitiklərə görə, bununla Gürcüstan hökuməti Azərbaycandan qaz asılılığını azaltmaqla bərabər, SOCAR-ın gürcü qaz bazarında monopoliyasına məhz "Qazprom" vasitəsilə son qoymaq, paralel surətdə Rusiyaya təhlükəli reverans eləmək niyyətindədir. Yerli müxalif qüvvələr isə hökumətin bu addımlarını ölkənin suverenliyinə təhlükə kimi qiymətləndirməkdədir. Sabiq rusiyapərəst baş nazir, indiki hökumətin "boz kardinalı" sayılan milyarder Bidzina İvanişvilinin Tiflisdəki ofisini önündə buna qarşı dəfələrlə etiraz aksiyaları da keçirilib.

Ölkənin energetika naziri Kaxa Kaladze Ermənistan vasitəsilə İran qazı almaq yönündə də neçə vaxtdır danışıqlar aparır. Bununla bağlı hətta Ermənistan prezidenti Serj Sərksiyan prezident İlham Əliyevdən bir neçə gün öncə Tiflisə səfər eləmişdi. Lakin İran marşrutu da hələ ki, öz həllini tapmayıb. Görünür, Rusiya amili hər iki məsələdə vazkeçilməz olaraq qalır.

***

Azərbaycan prezidentinin səfərini zəruri edə biləcək başqa mühüm detal. Məsələ ondadır ki, axır vaxtlar rəsmi Moskvadan Tiflisin ünvanına Çeçenistanla həmsərhəd Pankisi dərəsi ilə bağlı terrorçuluğa dəstək ittihamları səslənir. Guya həmin əraziyə Tiflis nəzarət edə bilmir. Gürcüstan hökuməti isə bunu inadla təkzib edir.

Prezident Georgi Marqvelaşvilinin ötən həftə ABŞ və Avropa Birliyi ölkələrinin səfirləri ilə birgə Pankisi dərəsinə səfər eləməklə bir daha Rusiyanın iddialarının və mümkün müdaxiləsinin əsassızlığına diqqət yönəldib. Gürcüstanın təhlükəsizliyi və müstəqilliyi isə təbii ki, Azərbaycanın da müstəqil və suveren şəkildə var olması deməkdir.

Bu xüsusda prezident Əliyevin Tiflis səfəri region və onun ətrafındakı vəziyyətdən dolayı bir daha "saat əqrəblərinin tutuşdurulması" baxımından faydalı ola bilərdi. Hər necə olmasa, gürcü hökumətinin bəzi müəmmalı gedişlərinə rəğmən, bu ölkə bizə əsas "Qərb qapısı" və Türkiyə qədər mühüm strateji tərəfdaş ölkə olaraq qalır.

O sırada Azərbaycandan, Xəzərdən başlanğıc götürən bir neçə böyük enerji arteriyası *(Bakı-Tiflis-Ceyhan və Bakı-Supsa neft kəmərləri, Bakı-Tiflis-Ərzurum qaz kəməri)* məhz bu ölkənin ərazisindən keçir. 2018-ci ildə istifadəyə veriləcək TANAP qaz xətti də Gürcüstandan keçməlidir. Bu ilin axırında isə Bakı-Tiflis-Qars strateji dəmiryolu xətti nəhayət, işə düşəcək ki, bununla da Azərbaycan, Gürcüstan və Türkiyə daha möhkəm tellərlə bir-birinə bağlanmış olacaq.

***

AŞ PA-nın qış sessiyasında işğalçı Ermənistan əleyhinə qətnamə layihələrinin səsverməsi də göstərdi ki, strateji məqamlarda Gürcüstan Azərbaycanın yanında qərar tutmağı bacarır. Yeri gəlmişkən, gürcü deputatların əksəriyyətinin hər iki sənədi dəstəkləməsi Ermənistanda ciddi narazılıq və hətta psixoz yaradıb.

Maraqlıdır ki, belə bir narazılıq fonunda Gürcüstanın müdafiə naziri Tinatin Xidaşeli İrəvana səfər edib və burada erməni müdafiə naziri Seyran Ohanyanla 2016-cı il üçün hərbi əməkdaşlıq barədə müqavilə imzalayıb. Gürcü qaynaqlarının məlumatına görə, hər il imzalanan hərbi əməkdaşlıq müqavilələsinin əsas müddəalarını sülhməramlı fəaliyyət sahəsində təcrübə mübadiləsi, hərbi təhsil, peşəkar hazırlıq və strateji planlaşma təşkil edir.

Göründüyü kimi, əslində bu, "qaloçka" xətrinə edilən bir səfər təəssüratı daşıyır və ciddi hərbi əməkdaşlıqdan söhbət getmir - hansı ki, Gürcüstan, Azərbaycan və Türkiyənin hərbi idarələri və hərbi nazirləri arasında illərdir mövcuddur. Onu da xatırlatmağa dəyər ki, müstəqillik qazanandan sonra Gürcüstan bircə dəfə də olsun, Ermənistanla ortaq hərbi təlim keçirməyib.

❑ **Siyasət şöbəsi**

# Rusiya ilə Türkiyə müharibənin bir addımlığında...



## İki ölkənin maraqları Suriyada toqquşur; Qabil Hüseynli: "Bu, bütövlükdə NATO-Rusiya toqquşması kimi dəyərləndirilə bilər"

**Türkiyə ilə Rusiya müharibənin bir addımlığındadır. Dünya mətbuatının diqqətində olan bu məsələ əksər politoloqlar tərəfindən məhz bu cür qiymətləndirilir. İki ölkənin maraqlarının Suriyada kəsişməsi məhz burada lokal xarakterli müharibə ilə nəticələnə bilər. İngiltərənin "Tayms" qəzetinin iddialarına görə, hər iki ölkə Suriya sərhədində hərbi varlığını gücləndirib.**

Belə ki, Türkiyə İŞİD-in nəzarətindəki Suriya ərazilərini minalardan təmizləməyə başlayıb. Bu, Ankaranın quru əməliyyatlarına hazırlaşdığını göstərir. Kreml isə PKK-nın Suriya qolu olan YPG ilə yaxınlaşmağa başlayıb. Rusiya ötən həftə Suriyanın Türkiyə ilə sərhəddə yerləşən Qamışlı şəhərində aviabaza tikmək üçün 200 əsgər göndərib. Prezident Rəcəb Tayyib Ərdoğan ABŞ vitse-prezidenti Co Baydenlə görüşü zamanı Rusiyanın buradakı hərbi varlığına qarşı səbrli davranmayacaqlarını bildirib. Bundan əlavə, ötən gün rusiyalı jurnalist Sergey Dorenko "Replika" proqramının efirində bəyan edib ki, yaxın vaxtlarda Türkiyə Suriyaya müdaxilə edəcək və rusiyalılar yaxın həftələrdə onlara atəş açmalı olacaqlar. Dorenko deyib ki, Türkiyə 80 milyon əhaliyə malik NATO ölkəsidir. Türklər Suriyanın şimal-qərbini bizim Donbası qəbul etdiyimiz kimi hesab edirlər. Onlar düşünürlər ki, həmin ərazilərdə soydaşları yaşayır. Və tezliklə bizim onlarla, türklərlə müharibəmiz olacaq.

Jurnalist güman edir ki, yaxın vaxtlarda Türkiyə Suriyaya müdaxilə edəcək və rusiyalılar onlara atəş açmalı olacaqlar. "Biz müharibəyə başlayacağıq", - deyə, Dorenko fikrini yekunlaşdırıb.

İki ölkə arasında qarşıdurmaya səbəb olan amillərdən biri də odur ki, Rusiya ötən il oktyabrın 31-də Misirin Sina yarımadası üzərində partladılan sərnişin təyyarəsindən Türkiyəyə qarşı təzyiq və təbliğat elementi kimi istifadə etməyə cəhd edir. Belə ki, Rusiya Federal Təhlükəsizlik Xidməti bu terror aktında "İslam dövləti" terror birləşməsi ilə əlaqəli olan "türk milliyyətçi qruplaşması" olan "Boz qurd" təşkilatından şübhələnir. Bu haqda "Kommersant" yazıb.

**Regionun ən güclü dövlətləri olan Rusiya və Türkiyənin müharibə astanasında olması fikrinə münasibət bildirən politoloq Qabil Hüseynli "Yeni Müsavat"a açıqlamasında dedi ki, vəziyyət gərgin olsa da, müharibə ehtimalı yoxdur:** "Rusiya-Türkiyə münasibətlərində vəziyyət olduqca gərgindir. Rusiya sanki Türkiyəni yenidən gərginliyə çəkmək istəyir. Türkiyənin sərhədlərinin necə qorunduğunu, hərbi-hava qüvvələrinin sayıqlığını bir növ yoxlamaq istəyir. Bu, Rusiya tərəfindən bir provokasiyadır, Türkiyəni lokal xarakterli, Suriya miqyasında müharibəyə cəlb etmək istəyir.

Rusiya başa düşür ki, Suriyadakı münaqişənin həllində Türkiyənin mövqeyi güclüdür. Bəzi nüanslara baxmayaraq, Suriya ordusu bütövlükdə Türkiyənin təsiri altındadır. Türkiyə gələcək Suriyanın taleyinin həll edilməsində böyük rol oynayacaq.

Bu baxımdan da Rusiya gah təyyarə olayları ilə, gah yardım karvanının vurulması ilə müxtəlif provokasiyalara gedir".

**Ekspertin sözlərinə görə, Rusiya bu məsələdə nə qədər kəskin davransa da Türkiyənin arxasında olan NATO ilə müharibəni gözə ala bilməz:** "Rusiya mətbuatında bir çoxları belə hesab edir ki, Türkiyə ilə Rusiya müharibəyə doğru gedirlər. Ancaq mən inanmıram ki, bu münaqişə sonda müharibə ilə nəticələnsin. Çünki Türkiyə ilə müharibə bütövlükdə NATO ilə müharibə deməkdir. Belə bir müharibə isə Rusiyaya lazım deyil. Nə qədər şantajdan və ya müxtəlif metodlardan istifadə etsə də, Rusiyanın indiki ağır iqtisadi vəziyyətində bu müharibə onu tamamilə çökdürə bilər.

Bu müharibə Türkiyəyə də lazım deyil. Çünki istənilən müharibə tərəflərdən hər birinə ziyan vurur. Bu baxımdan Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Putinlə danışmaq istəyir. Putin isə naz edən adamlar kimi danışıqlardan qaçır və bununla öz çəkisini artırmaq istəyir. Amma hər halda, Türkiyə prezidenti öz hərbi təyyarələrinə, hava hücumundan müdafiə qüvvələrinə Rusiyanın sərhədi pozan təyyarələrini vur əmrini verib. Bundan əlavə, hərbi təyyarələr hazırlıq vəziyyətinə gətirilib. Bunları da nəzərdən qaçırmaq olmaz. Rusiya ən yeni bombardmançı təyyarələrini Suriyaya göndərir. Lakin bütün bunlar vəziyyəti xilas etməyəcək".

Q.Hüseynlinin sözlərinə görə, **Putin davranışları ilə həm də Amerikanı qarşısına alıb və indi gündəmi dəyişməyə çalışır:** "Pentaqon da Rusiyaya xəbərdarlıq edib və bildirib ki, sərhədlərin pozulması hallarına son qoymaq lazımdır. Üstəlik, son dövrlərdə Amerika ilə Rusiya arasındakı münasibətlər çox gərginləşib. Rusiya prezidenti Putinin ağır rüşvətxorluqda və digər neqativ hallarla bağlı ittiham edilməsi və bununla bağlı film çəkilməsi Putini bütün dünyanın gözündən salıb və xalqın ona rəğbətini də xeyli azaldıb.

Belə olan halda indiki sərhədpozma əməliyyatı Amerika ilə Rusiya arasında olan gərginlik və bunun bütün dünya mətbuatında işıqlandırılmasının fonunda Putinin gündəmi dəyişmək cəhdlərindən başqa bir şey deyil. Putin dünya mətbuatının diqqətini Rusiya ilə Türkiyə arasında müharibə ehtimalının artması fikrinə cəlb etməklə onun şəxsiyyəti haqqında dünya mətbuatında gedən fikirləri başqa bir səmtə yönəltmək istəyir".

**Rusiya ilə Türkiyənin Suriyada toqquşma ehtimalına gəlincə, Qabil Hüseynli bildirdi ki, Suriya məsələsi təkcə Türkiyənin məsələsi deyil, bütövlükdə NATO-nun, Qərbin məsələsidir:** "Ona görə də Türkiyə Suriya məsələsində quru qoşunlarından istifadə etmək öhdəliyini öz üzərinə götürüb. Ancaq hava hücumundan müdafiə NATO qüvvələri tərəfindən həyata keçirilir. Yəni Suriya müharibəsi və lazım gələrsə, bölgədə Rusiya ilə lokal toqquşma, bütövlükdə NATO-Rusiya toqquşması kimi dəyərləndirilə bilər. Çünki aparılan bütün danışıqlar bu səmtdədir. Əks halda, Türkiyə bütün məsuliyyəti bu şəkildə öz üzərinə götürməz. Bir sözlə, aranı qatan Rusiyadır, ona qarşı çıxan NATO-dur. Lakin NATO-nun öndə gedən üzvlərindən biri kimi Türkiyə bu məsələdə önə çıxıb. Lakin yaxın zaman üçün iki ölkə arasında toqquşma gözlənilmir. Rusiya ilə Türkiyənin müharibəyə başlaması çox zəif ehtimaldır. Bu daha çox Rusiyanın gündəmi dəyişdirmək istəyi və Türkiyənin gözünü qorxutmaq cəhdidir. Lakin Rusiya onu da unutmur ki, Türkiyə NATO-ya üzv olan digər ölkələr kimi NATO-dan güclü dəstək alır".

❑ **Nərgiz LİFTİYEVA**



# Ölkəyə gətirilən "18 milyard inqilab pulu" ilə bağlı cinayət işi başlandı

## Tofiq Rəcəbov: "Əlimdəki bütün sənədləri istintaqa təqdim etdim"

**Təqaüddə olan xüsusi xidmət polkovniki Tofiq Rəcəbov Baş Prokurorluğun Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə çağırılaraq dindirilib. Bu haqda redaksiyamıza daxil olan məlumatı T.Rəcəbov təsdiq edib. Dindirmənin mövzusu haqda açıqlama verən T.Rəcəbov deyib ki, müstəntiq ona ölkəyə gətirilən 18 milyard avro ilə bağlı suallar verib: "Müstəntiq suallar verdi. Maraqlanırdılar ki, o pulun ölkəyə gəlməsi haqda məlumatları haradan öyrənmişəm. Keçmiş əməliyyat işçisi olduğumu dedim və əlimdəki bütün sənədləri istintaqa təqdim etdim".**

T.Rəcəbov deyib ki, şahid qismində dindirilməsi 1 saata yaxın davam edib: "Mən bildiyim nə vardısa, istintaqa demişəm. Araşdırsınlar, görsünlər ki, o pullar ölkəyə kimlərin əli ilə və niyə gətirilib. O pulları ölkəyə gətirənlər xəyanətkarlardır".

Qeyd edək ki, ötən ilin oktyabrında T.Rəcəbov "Yeni Müsavat"a müsahibə verərək "Azərbaycana inqilab üçün 18 milyard gətirilmişdi" iddiasını səsləndirmişdi.

**Həmin müsahibədən sitat:** "Bu yaxınlarda mən biznesimlə əlaqədar İsveçrədə idim. Orada bir neçə adamla görüşdüm. Onlar təklif etdilər ki, bəzi məsələləri prezidentə çatdırmaq lazımdır, ölkəyə təhlükə var. Yəni bəzi nazirlər qrup halında birləşiblər. Xarici ölkələrin, xüsusən Avropanın və böyük dövlətlərin siyasi rəhbərliklərinə çıxış axtarırlar. Özlərinə dayaq axtarırlar ki, gələcəkdə hakimiyyətə yiyələnsinlər, öz əmlaklarını qorusunlar. Bakıya qayıdan kimi dərhal yazıb çox yüksək səviyyəli bir vəzifəliyə verdim. O da aparıb bunu verib Eldar Mahmudova. O da mənə çatdırdı ki, istəyirsən bu həyatda yaşayasan, bir də ağzına belə şey gətirmə. Akif Çovdarov qapımızı pusdururdu, oğlumu güdürdülər. Demişdilər ki, danışsan, oğlunu tutub yox edəcəyik. Bunlar 2 il əvvəl olub. Həmin pullar çevriliş etməyə xərclənməli idi. Həmin pullardan mənə də təklif etmişdilər. Demişdilər ki, zavodların var, o pulları zavodlarına ayıraq. Pulu seçkidən 2-3 ay əvvəl verməli idilər. Başa düşdüm ki, çevrilişə hazırlıq gedir".

**T.Rəcəbov KQMBİ-də dindiriləndən sonra məsələnin obyektiv araşdırılacağına ümidli olduğunu da gizlətməyib:** "Bu məsələnin üstündən elə belə keçmək olmaz. 18 milyard pulu ölkəyə gətirənlər tutulub istintaqa cəlb olunmalıdırlar. Bir daha deyirəm ki, qəzetinizə verdiyim müsahibədə söylədiyim fikirlərin üstündə qalıram və istintaq orqanına da aparılacaq araşdırmada hərtərəfli kömək etməyə hazıram".

**Yada salaq ki, T.Rəcəbov qəzetimizə müsahibə verəndən sonra Daxili İşlər Nazirliyinin Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsindən məsələ ilə maraqlanmışdılar. Lakin T.Rəcəbov məsələnin prokurorluq orqanında araşdırılmasının tərəfdarı olduğunu demişdi:** "Bu məsələnin araşdırılması onların səlahiyyətlərini aşırdı. Çünki işdə MTN-in yüksək çinli zabitlərinin adı hallanır, yüksək vəzifə daşıyan, bu gün də yüksək vəzifədə olan şəxslərin adları var. Bu işdə AZAL prezidenti Cahangir Əsgərovun da marağı olub. Əgər onun marağı olmasaydı, içində o qədər pul olan təyyarə Bakı Hava Limanına enə bilməzdi. Əlimdə dediklərimi təsdiqləyən sənədlər də var. Pulu Beynəlxalq Bankın İdarə Heyətinin əvvəlki sədri Cahangir Hacıyevlə işçisi Rəşad Qasımov imzalayıb alıblar. Pulu onlar qəbul ediblər. Bu gün də 18 milyard avro ortada yoxdur. Oğurlayıblar, ölkədən çıxarıb xaricdə banka yerləşdiriblər. Ötən müsahibəmdə bu işin təşkilatçıları haqda demişdim. Bu adamlar pul ölkəyə gəlməzdən əvvəl hazırlıqlarını görüblər. Pulun gələcəyindən xəbəri olan vəzifəliləri də "görüb"lər. Düşünməyiblər ki, məsələ nəzarətdən çıxıb ölkə rəhbərliyinə qədər gedib çıxa bilər. Pulun bura gətirilməsi məxfi əməliyyat kimi olub. Onların ağlına gəlməzdi ki, kimsə bundan xəbər tuta və məlumatı ötürə bilər. Bunu mənə deyəndən sonra MTN-də çalışan yaxın dostum vasitəsilə yazıb ötürdüm. Məcbur qalıb həmin pul ölkəyə gətiriləndə kimi burada tutdular. Əməliyyat mənim informasiyama əsasən keçirilmişdi. Məcbur qalıb pulu Cahangir Hacıyev qol çəkib Beynəlxalq Banka götürdü. Pulu Beynəlxalq Banka mədaxil ediblər. Faktiki isə həmin pul mədaxil olunmayıb, oğurlayıb xaricə göndəriblər".

❑ E.MƏMMƏDƏLİYEV



# Qazaxda bank müdiri kredit fırıldağının qurbanlarını həbs etdirir

## Xanlıqlar kəndinin sakinləri "kredit bataqlığı"ndan xilas ola bilməyib

**Qazax rayonunun Xanlıqlar kəndinin sakinlərinin kredit problemi hələ də həll olunmayıb. Sakinlərin adına kredit götürən kənddəki bağça müdirəsi Xatirə Əsgərova həbs edilsə də, kənd sakinləri "kredit bataqlığı"ndan xilas ola bilməyib.**

Kənd sakinləri həbsdə olan bağça müdirəsi tərəfindən saxta sənədlərlə adlarına götürülən kreditləri ödəyə bilmirlər. Adına kredit götürülən kənd sakinlərinin əksəriyyəti işsizdir. Ümumilikdə 230 nəfər kənd sakini bağça müdirəsinin kredit fırıldağının qurbanı olub.

Musavat.com-un Qazağa ezam olunmuş reportyorları kənd sakinləri ilə görüşüb. Hazırda rayonda müəllimə, həkim kimi çalışan kənd sakinləri qarşılaşdıqları problemlə bağlı danışmaq istəmədilər. Onlar işdən çıxarılacaqları ilə hədələndiklərini deyirlər. Dövlət müəssisələrində işləyən bir çox kənd sakinlərinin maaş kartları dondurulub. Onların maaşı Xatirə Əsəgərova üçün götürülən kreditlərə tutulur.

X.Əsgərova sakinlərin ona olan etimadından sui-istifadə edərək onların adlarına "Zaminbank", "Beynəlxalq Bank", "Kredaqro" Qeyri-Bank Kredit Təşkilatı, "Finca-Azerbaijan" Qeyri-Bank Kredit Təşkilatı və "Kapital Bank"ın Qazax şöbələrindən kredit götürüb. Hətta bəzi kənd sakinin adına bu bankların hamısında kredit rəsmiləşdirilib.

Əslən Xanlıqlar kəndindən olan X.Əsgərova sakinlərin əksəriyyəti ilə uzaq da olsa qohumdur. Əksər sakinlərin adına krediti də elə bu qohumluq əlaqələrindən istifadə edərək götürüb. Gah müdirə statusundan yararlanıb, gah da oğluna qonşu kənddə ev almağı əsas gətirərək həmkəndlilərinin razılığını alıb.

2012-ci ildən kreditləri ödəyə bilməyən X.Əsgərovanın əməlləri ifşa olunarkən o, aldığı pulu Pərvanə Səfərova adlı Qazax rayon sakininə verdiyini deyib. Bununla da məsuliyyətdən yayınmaq istəyib.

**P.Səfərovanın həyat yoldaşı Tariel Allahverdiyev xanımının qanunsuz olaraq həbs edildiyini deyir. Onun sözlərinə görə, X.Əsgərova ilə həyat yoldaşının heç bir şərikliyi olmayıb:** "Pərvanə Xatirədən 2 min manat sələmə pul götürmüşdü. Bundan başqa onların heç bir əlaqəsi olmayıb. Kiçik bir mağazamız var idi. Öz gündəlik dolanışığımızı təmin edirdik. Kənd sakinlərinin hər biri də etiraf edir ki, onlar krediti Xatirə Əsgərova üçün alıblar. Bir neçə yalan ifadə ilə bütün işi yoldaşımın üstünə yıxdılar və 9 il 6 ay müddətinə azadlıqdan məhrum etdilər. Pərvanənin səhhətində ciddi problem var. Vəkili də özləri təyin edib".

Kənd sakinləri də P.Səfərovanı tanımadıqlarını, yalnız X.Əsgərova ilə görüşdüklərini və krediti də onun üçün aldıqlarını deyirlər. Əksər kənd sakinlərinin adına "Zaminbank"ın Qazax rayon şöbəsindən kredit götürülüb.




Kredit fırıldağının qurbanı olan kənd sakinləri musavat.com-a açıqlamalarında bildiriblər ki, "Zaminbank"ın Qazax rayon şöbəsinin müdiri Məzahir Mirzəyev onlara hansı yolla olursa-olsun, kreditləri ödətdirəcəyini deyib. M.Mirzəyev kənd sakinlərini kreditlərini ödəməyəcəkləri halda həbs etdirəcəyini də deyib. Və artıq kredit borcunu ödəyə bilməyən bir neçə kənd sakini həbs edilib.

Yanvarın 21-də adına olan kredit borcunu ödəyə bilmədiyi üçün həbs edilən kənd sakinlərindən biri Zaur Xəlilovdur. Atası Adil Xəlilov deyir ki, oğlu heç bir yerdə işləmir. X.Əsgərova oğlunun adına kredit götürüb. Kredit borcunu ödəyə bilmədiyi üçün Z.Xəlilova 10 sutka həbs veriblər.

**A.Xəlilovun sözlərinə görə, ailə üzvlərindən heç kim işləmir:** "Mən də işləmirəm. Oğlumun körpə uşaqları evdə başsız qalıb. Sosial yardımı da kəsiblər. "Zaminbank"ın şöbə müdiri Məzahir Mirzəyev oğlumu hədələyirdi ki, ödəməsən, səni həbs etdirəcəm. Axı biz niyə Xatirə Əsgərovanın adına kredit ödəməliyik? Hər kəs də bilir ki, bu pulu onun üçün götürmüşük. Buna görə də onu həbs ediblər".

Hazırda həbsdə olanlardan biri də Qədir Əsgərovdur. O da heç bir yerdə işləmədiyi halda X.Əsgərova onun adına "Zaminbank"dan 3 min manat kredit götürüb. M.Mirzəyev ondan kreditin ödənməsini tələb edib və əks halda həbs ediləcəyini bildirib. Q.Əsgərova 10 sutka həbs verilib. Yoldaşı Əminə Hüseynova 3 uşaqla çarəsiz vəziyyətdə qalıb.

**Ə.Hüseynova deyir ki, onun da adına Xatirə Əsgərova kredit götürüb:** "Yoldaşım günü 7 manata fəhlə işləyirdi. Günlərlə işsiz qalırdı. Heç bir sosial yardım da almırıq. 3 uşaqla başsız qalmışıq. Uşaqları məktəbə də göndərməyəcəm. Gündəlik çörək almağa pulumuz belə yoxdur".

Gülbadə Qurbanovanın da həyat yoldaşı həbs edilib. Onun da adına Xatirə Əsgərova "Zaminbank"dan kredit götürüb. Lakin X.Əsgərova həbs edildikdən sonra krediti onların ödəməsini tələb ediblər.

**G.Qurbanovanın sözlərinə görə, həyat yoldaşı heç bir yerdə işləmir. Lakin onun adına "Zaminbank"dan 3 min manat kredit götürülüb:** "Xatirə heç bir yerdə işləməyən yoldaşımın adına 3 min manat kredit götürdü. Mənə isə işlədiyim halda 2 min manat kredit verdilər. Öz kreditimi ödəyirəm. Lakin Xatirənin götürdüyü krediti ödəyə bilmirik. 130 manat maaş alıram. Yoldaşımı Məzahir Mirzəyev hədələyirdi ki, krediti ödəməsən səni həbs etdirəcəm. Elə də oldu. Yoldaşıma 7 sutka həbs veriblər".

Kənd sakinlərindən Elvin Nəsibov da kredit borcunu ödəyə bilmədiyi üçün həbs olunanlardandır. 10 sutka həbs cəzası alan E.Nəsibov hazırda azadlıqdadır.

**X.Əsgərovanın kredit fırıldağının qurbanlarından biri də Rəcəb İsayevdir. Həm onun, həm anasının, həm də həyat yoldaşının adına X.Əsgərova tərəfindən kredit götürülüb:** "Həyat yoldaşımın və mənim adıma "Zaminbank"dan kredit götürülüb. Nə mən, nə də yoldaşım işləmir. Anamın adına isə 3 bankdan kredit götürüb. Xatirə Əsgərova bizə yaxın qohumdur. Etibarımızdan istifadə edərək bizi aldatdı. İndi bu kreditlər bizim üstümüzdə qalıb".

**Zərərçəkmiş Nazəndə Həşəyeva da Məzahir Mirzəyevdən şikayətçidir. Kənd sakini deyir ki, M.Mirzəyev krediti ödəyə bilməyən kənd sakinlərini həbs etdirəcəyi ilə hədələyir:** "X.Əsgərova mənim qızıllarımı da almışdı. İlk dəfə şikayət ediləndən sonra qızıllarım qaytarıldı. Kreditimin də bir hissəsi ödənildi. Kreditimin 1000 manatı qalıb. "Zaminbankdan" adıma 2500 manat götürülmüşdü. Məzahir Mirzəyev yenidən faiz hesablayıb. Borc təzədən 2500 manatı keçib".

**Qeyd edək ki, hazırda P.Səfərova və X.Əsgərova həbsdədir. Qazax Rayon Polis Şöbəsinin istintaq bölməsində Cinayət Məcəlləsinin 178.2.2-ci (dələduzluq) maddəsi ilə açılan cinayət işindən sonra P.Səfərova və X.Əsgərova həbs edilib. P.Səfərova Gəncə Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə 9 il 6 ay müddətində azadlıqdan məhrum edilib. X.Əsgərovanın məhkəmə prosesi isə davam etdirilir.**

❑ İlkin MURADOV
Məhəmməd TÜRKMƏN

YENİ MÜSAVAT
N 24 (6345) 2 fevral 2016

**Hələ ötən ildən 2016-cı ildə ölkədə əksər sahələrdə ASAN xidmət idarəçilik modelinə keçidin mümkün olacağının anonsu verilib. Əksər ekspertlər belə hesab edir ki, bu model əksər dövlət və hökumət strukturlarında tətbiq edilməlidir. Bəs hökumətin əksər strukturlarını ASAN-a keçirmək niyə mümkün olmur? Ekspertlərin bu məsələdə fikirləri maraqlıdır...**

# 2016-cı ildə hökumət ASAN-laşacaqmı...

## Ekspertlər təkliflər verirlər, ancaq...

**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a bildirib ki, bir çox sahələrin ASAN-laşmasına ehtiyac var: "Əslində ASAN Xidmətin yaradılması həm də bir etiraf idi ki, hökumət strukturunu, ənənəvi hökumət islah etmək mümkün deyil. İslah olunmurlar bunlar. Ona görə ASAN Xidmət bir paralel qurum kimi yaradıldı. Effekti də oldu. İnsanlardan rəğbət də gördü. Çünki ASAN Xidmətdən istifadə daha rahat oldu və insanlar növbəsiz və personalla qarşılaşaraq öz problemlərini həll edirdilər. Amma bu, idarəetmənin tamamilə ASAN-a verilməsi kimi bir ideyanın ortaya atılması bir az problematik görünür. Yəni Azərbaycanda bir çox sahələr var ki, o sahələrdə problem çoxdur. Məsələn, məhkəmə sahəsi. Onu necə ASAN Xidmətə vermək olar? Mümkün deyil. Və yaxud vergilərin toplanması, vergi yığılması, gömrük məsələlərini necə ASAN-a verəsən? ASAN-a ancaq gömrük bəyannaməsinin təsdiq olunmasını vermək olar, kargüzarlığı vermək olar. Amma fəaliyyətin özü ki, sərhədlərdə baş verir, onu ASAN Xidmət necə həyata keçirəcək? Ölkədə problem odur ki, ASAN Xidmətin genişləndirilməsindənsə hökumətin özünü ASAN-laşdırmaq lazım idi. Hökumət özü ASAN olmalı idi, nəinki ayrıca bir struktur yaradılsın. Bu struktur effektivdir. Amma bu, idarəetmədə olan problemləri aradan qaldırmır təəssüf ki. Məişət korrupsiyasının qarşısını almaqda xidməti oldu. Əvvəllər, məsələn, rayon polis şöbəsinə gedib vaxtından qabaq pasport, yaxud şəxsiyyət vəsiqəsi almaq istəyirdinsə, rüşvət verirdin. İndi dövlət büdcəsinə pul ödəyirsən, çox mədəni xidmət alırsan. Ona görə hökumətin, dövlətin bir çox funksiyaları var ki, onu ASAN Xidmət həyata keçirə bilməz. Polis sistemi, məhkəmə, ədliyyə sistemidir, biznes sferalarıdır, gömrüyün, verginin tənzimlənməsidir, qanunvericilik orqanının işidir. Yəni ASAN Xidmət qanunvericilik orqanının işini həyata keçirə bilməz axı. Normal, çevik parlament formalaşmalıdır ki, orada müzakirələr olsun. Bu, formalaşmırsa, ASAN Xidmət necə etsin? Ona görə də ASAN-ın bu günə qədər qazandığı uğurların tətbiqini digər




dövlət strukturlarında həyata keçirmək lazımdır. Belə demək mümkünsə, hökuməti ASAN-laşdırmaq lazımdır".

**Ekspert Ərəstun Oruclu isə qeyd edib ki, söhbət birbaşa ASAN Xidmət deyilən qurumun əhatə dairəsinin artırılmasından gedirsə, burada mane olan bir çox məqamlar var:** "Birincisi texniki imkanlardır. Yəni hər şeyi bir xidmətin üzərinə yükləmək düzgün deyil. Onda heç hökumətə, nazirliklərə ehtiyac olmazdı. Yəni müəyyən funksiyalar var ki, onları ASAN Xidmət adlı qurum vasitəsilə həyata keçirmək mümkündür. Və kifayət qədər uğurla keçirilir də. Amma hər şeyi bu xidmətin üzərinə yükləmək olmaz. Birincisi, texniki imkanların məhdudiyyəti məsələsi var. Digər tərəfdən, o ölkədə faktiki olaraq bu cür situasiyaya nəzarət edən bir yeni qurumun yaradılması da düzgün deyil. Hakimiyyət idarəçilik sisteminin çox mühüm şərtlərindən biri vəzifə və səlahiyyət bölgüsüdür. Bütün səlahiyyətlər, bütün vəzifələr ASAN Xidmətin üzərinə düşəcəksə, təbii ki, sonda ASAN Xidmət faktiki olaraq ölkədə hökumət demək olacaq. Bir də onun funksiyasına uyğun məqamlar var, aid olmayanları necə ASAN Xidmətə keçirmək olar? Digər tərəfdən, korrupsiya ilə mübarizənin yolu bir tək ASAN Xidmət yaratmaq deyil, yolları çox sadədir. Korrupsiyaya son qoyulur, rüşvət piramidası ləğv olunur, bununla məsələ bitmiş olur. Hökumətin idarəçilik prinsipləri iyerarxiyası korrupsiya, rüşvət üzərində qurulursa, bunun qarşısını bir xidmətlə almaq mümkün deyil. Çünki bunu həyata keçirmək üçün motivlər olmayacaq".

Qeyd edək ki, əksər ekspertlərə görə, bir çox strukturlara aid işlərin asanlaşdırılması və şəffaflaşdırılması günün tələbidir. Bildirilir ki, bir neçə il əvvəl ASAN Xidmətin yaradılması maraqlı bir sosial innovasiyadır. Həmçinin qeyd edilir ki, dövlət xidmətlərinin bütün sahələrində olan problemləri həll etmək üçün həmin funksiyaların hamısının ASAN Xidmətə ötürülməsi heç də çıxış yolu kimi görünmür. ASAN Xidmətin təşkilinə və fəaliyyətinə bir islahat elementi, pilot layihə kimi yanaşmaqla, özünü doğruldan bu layihəni bütün dövlət qurumlarının fəaliyyətinin oxşar formada təşkilinə keçməklə genişləndirmək daha məqsədəuyğun olardı. Yəni əslində ayrı-ayrı funksiyaların ASAN xidmətə ötürülməsi ilə deyil, ASAN xidmətin iş təcrübəsini bütün dövlət qurumlarına ötürməklə islahatı başa çatdırmaq daha yaxşı olardı.

❑ **Röya RƏFİYEVA**

# Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatı hesabat verdi

## İşçilərini ixtisar edən neft qurumlarının adı açıqlandı

**Fevralın 1-də Beynəlxalq Mətbuat Mərkəzində Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatının (NHMT) hesabatı açıqlanıb. Tədbiri giriş sözü ilə təşkilatın sədri Mirvari Qəhrəmanlı açdı. O, qısa olaraq, təşkilatın yaranması, son 20 ildə gördüyü işlər və 2015-ci il üzrə fəaliyyətlərini açıqladı. Hüquq müdafiəçisi təşkilatın əsas işlərindən birinin neft sektorundan gələn gəlirlərə ictimai nəzarəti həyata keçirmək olduğunu qeyd etdi və əmək qanunvericiliyini pozan qurumlar barədə rəy hazırladıqlarını bildirdi.**

**M.Qəhrəmanlı** prezidentin sərəncamına məhəl qoymayan şirkətlərin olduğunu vurğulayaraq, onların sırasında "Qarasuoil", "Bahar Enerji", "Şirvanoil" əməliyyat şirkətlərinin adını çəkdi. Hüquq müdafiəçisi ARDNŞ-in Neftqaztikinti trestində, "Azərneftyanacaq", "Azərneftyağ", "Azəriqaz" İstehsalat Birliyi və digər müəssisələrdə yüzlərlə işçinin öz iş yerini itirdiyini bildirdi. O, şirkətlərin qanunsuz olaraq, işçiləri məzuniyyət adı altında ixtisar etdiyini qeyd etdi.

Təşkilatın sədri ötən il 77 iddia ərizəsi ilə məhkəməyə müraciət etdiklərini açıqladı. Onlardan 21-nin təmin olunduğunu, 37-nin qismən təmin olunduğunu, 12 iddia ərazisinin rədd edildiyini, 7 işin isə hələ də davam etdiyini söylədi.

**M.Qəhrəmanlı ixtisarların dövlət başçısını ciddi narahat etdiyini söylədi:** "Bizimlə işləyən bütün mətbuat orqanlarına təşəkkür edirəm. Daim bizimlə birlikdə oldular. Hazırda qeyri-qanuni ixtisarlar həyata keçirilir. Ölkədə mövcud olan monopoliyanın qarşısı alınmalıdır. Ölkəmizdə əsasən xarici şirkətlərin işinə şərait yaradırlar. Bu da işsizliyin artmasına




səbəb olur".

**Təşkilat sədri "Günəşli" faciəsindən də danışdı:** "Cəmiyyətə ilk xəbəri biz verdik. Hadisə ilə bağlı İşçi Qrupu yaratdıq. Əlimizdən gələn işi gördük. Tam məlumat cəmiyyətə açıqlanmadı. Biz o platformada kimlərin hadisə günü qala biləcəyi barədə faciənin səhərisi gün cəmiyyətə məlumat verdik. Özüm 25 il bu sahədə çalışmışam. Xoşbəxt Yusifzadə kimi 200-ə yaxın vəzifəli şəxs bu işə nəzarət etməli idi. Təqsirkar şəxslər göz önündədir, amma hələ də cəzalandırılmayıblar. Həmin gün təkcə 10-cu platformaya deyil, bütün platformalara xəbər verilmişdi ki, 10 baldan yuxarı qasırğa olacaq. Belə şəraitdə bir nəfərdən başqa hamı çıxarılmalı idi. Biz həlak olanlarla bağlı siyahılar tərtib etmişik. Sizlərə və bütün mətbuata verəcəyik. Həmin siyahıya nəzər yetirin. Həlak olanlar və itkin düşənlərin hər birinin 2 və ya 3 övladı var.

İşçilər orada saxlanılmamalı idi. Hadisənin səhəri gün kimlərin platformada qalmalı olduqları barədə xəbər yaydıq. Platformada təhlükəsizliklə məşğul olan işçinin sözü rəhbərlikdən üstün olmalıdır. Xarici şirkətlərdə belədir. Amma təəssüf ki, bizdə əksidir. Bu hadisə üzrə günahkarlar çoxdur. Cəzasızlıq sindromu davam etdikcə, digər qəzalardan da sığortalanmayacağıq. Bu faciədə dövlətə dəyən ziyanı göz önünə gətirməkdənsə, əsas ziyanının insan itkisi olduğunu qeyd etmək lazımdır. Dəyən ziyanın yerini doldurmaq mümkün olacaq, amma ailələrin itirdiyi şəxsləri geri qaytarmaq mümkün olmayacaq. Aidiyyəti qurumların əksəriyyətinin rəhbərliyi faciə günlərində harada idilər? İtkin düşənlərlə bağlı təzadlı rəqəmlərin şahidi olduq. İnanıram ki, rəylərimiz prezidentə çatacaq və bu istiqamətdə səmərəli addımlar atılacaq. Hazırda mənə yenə də mesajlar gəlir. İşçilər bildirirlər ki, platformalarda heç bir dəyişiklik yoxdur. Hər şey əvvəlki qaydadadır. "Azneft" İstehsalat Birliyinin rəhbərliyi bu məsələdə birbaşa məsuliyyət daşıyır. Qayığın keyfiyyətinə məndə şübhələr var. Çünki qayığın altı qopub və insanlar o şəkildə dənizə tökülüblər. Həmin qayıqlar sakit hava üçün nəzərdə tutulub, qasırğalı hava üçün yox... Nəticədə itkilər daha çox olub. Hamı getdi, dənizə qərənfil atdı. Amma bəzi QHT-lər və aidiyyəti qurumların rəhbərləri poza verərək, şəkillər çəkdirdilər".

Konfransda hazırda 19 nəfərin itkin sayıldığı və "Neft Daşları"nda itkin düşən üç neftçinin unudulduğu da bildirildi.

**Mirvari Qəhrəmanlı axtarışlara da toxundu:** "Bu barədə cəmiyyətə dolğun məlumat da verilmədi. Düşünürəm ki, axtarış getmir".

Təşkilat hadisə zamanı platformada olan işçilərin sayından ibarət rəqəmin təzad təşkil etdiyini elan etdi. Ümumi siyahıda 62 nəfərin adının olduğu, bir nəfərin isə kimliyinin məlum olmadığı bildirildi. Neft-qaz quyusunun hazırda birində yanğının davam etdiyi qeyd olundu.

**Sonda media nümayəndələrinin sualları cavablandırıldı.**

❑ **Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 24 (6345) 2 fevral 2016

# Bakının xarabalığına çevrilən sovet "yadigarları"

## Vaxtilə minlərlə fəhlənin çalışdığı zavodları dirçəltmək nümkünmü? İqtisadçı-alim **Oqtay Haqverdiyev:** "Həmin ərazidə müasir tələblərə cavab verən müəssisələr açmaq olar, bir şərtlə ki..."

**Neftin dünya bazarında qiymətinin kəskin ucuzlaşması Azərbaycan hökumətini ölkənin qeyri-neft sektorunu inkişaf etdirmək zorunda qoydu. Prezident İlham Əliyev də hökumətin müşavirələrində bu məqamı xüsusilə qeyd edərək bildirdi ki, Azərbaycan iqtisadiyyatının neftdən asılılığını tədricən aradan qaldırmaq lazımdır. Ekspertlərə görə isə iqtisadiyyatın neftdən asılılığını aradan qaldırmaq üçün ilk növbədə sənaye inkişaf etdirilməli, zavod və müəssisələr açılmalıdır.**

Sovet hökuməti dövründə Azərbaycanda onlarla zavod fəaliyyət göstərib ki, bu, SSRİ iqtisadiyyatının demək olar onurğasını təşkil edib. Həmin zavodların bir qismi Bakı ərazisində idi. Vaxtilə paytaxtda fəaliyyət göstərmiş həmin zavodların bir neçəsinin tarixi və bu gününü araşdırdıq.

Bakıda sənaye zavodlarının bir qismi metronun "Ulduz" stansiyası ətrafında yerləşib. Hətta bu stansiyanın da inşasının əsas səbəblərindən biri zavodlarda çalışanların mənzil başına rahat çatmasını təmin etmək olub. Bir zamanlar qeyd etdiyimiz stansiyadan yüzlərlə sərnişin istifadə etsə də, indi orada qatarlar sanki sadəcə olaraq fasilə etmək üçün dayanır. Çünki bu stansiyada qatara demək olar ki, düşüb-minən olmur...

"Ulduz" stansiyasının ətrafında yerləşən və çalışdığı müddətdə yüzlərlə həmyerlimizin iş yeri olan zavodlar hazırda xarabalıqlar içərisində, dağılmış vəziyyətdə qalıb. Ümumiyyətlə, bu stansiyanın ətrafı Bakının mərkəzindən çox fərqlənir. Stansiyanın daxilində səssizlik hökm sürdüyü kimi, çölündə də uçuq divarlar, yolsuzluq şəraitində olan küçələr hakimdir. Ərazisində olduğumuz müxtəlif zavodlar fəaliyyətlərini tam dayandırsa da, burada bir zamanlar gedən qızğın işin izləri hələ də qalmaqdadır.

### Bakı Elektrik Maşınqayırma Zavodu (BEMZ)

Digərləri ilə müqayisədə bir qədər yaxşı vəziyyətdə olan Bakı Elektrik Maşınqayırma Zavodu (BEMZ) olduğunu öyrənirik. Öncəliklə qeyd edək ki, BEMZ-in ilk məhsulu 1947-ci ildə istehsal edilən "TM-100/6" və "TM-50/6" markalı transformatorlar olub. Daha sonra zavodda elektrik mühərrikləri, generatorlar və digər bu kimi avadanlıqlar istehsal edilib. Zavodun 49 məhsulu SSRİ dövrünün dövlət keyfiyyət nişanı ilə buraxılıb. Həmin məhsullar 40-dək xarici ölkəyə idxal edilirmiş. Vaxtilə bu zavodda çalışmış Kərim Quliyevin sözlərinə görə, sovet dövründə orada 3 minə yaxın adam çalışıb. Hazırda isə zavodun 5-6 əməkdaşı qalıb. K.Quliyevin sözlərinə görə, BEMZ bərpa olunarsa, ən azı 2000 vətəndaşımız işlə təmin edilə bilər.

Zavodun ərazisini gəzərkən maraqlı nüanslarla qarşılaşdıq. Belə ki, həyətdə bir neçə yerdə mərhum prezident Heydər Əliyevin sitatları var. Həmin sitatların birində deyilir: **"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir".** Bu zavodda isə hazırkı halında güclü iqtisadiyyata aid heç nə tapmadıq.

### Bakı Elektroştamp Zavodu

BEMZ-in yaxınlığında yerləşən Bakı Elektroştamp Zavodunda da vəziyyət ürəkaçan deyil. Bu zavodun yerləşdiyi bina ərazideki digər zavodlarla müqayisədə nisbətən dağılmamış vəziyyətdədir. Ancaq burada da faktiki olaraq, heç bir iş aparılmır.

**Zavodun direktoru Ramiz Əhmədov söhbət zamanı bildirdi ki, 1991-ci ilə qədər bu zavodda da 3000-ə qədər insan çalışıb:** "Həmin zamandan etibarən zavod dağınıq halda idi. 2003-cü ildə biz buranı bərpa etdik. Həmin zaman zavoda yeni dəzgahlar gətirib sexləri təmir etdik. Böyük yatırımlar hesabına zavodun hazırkı binasını qurduq. 2002-ci ildə mərhum prezidentimiz Heydər Əliyev sahibkarlarla görüşürdü. O vaxt bizim zavodun direktoru Nurəddin müəllim idi. Mərhum prezident soruşdu ki, 100 nəfər adam işlədə bilərsinizmi? Nurəddin müəllim də cavab verdi ki, lap 300 nəfər də işlədə bilərəm. Həmin zaman biz zavoda 400 işçi götürdük. Onlar 2011-ci ilə qədər burada çalışdılar. Monopoliya nəticəsində zavodumuz bağlandı və mən də daxil olmaqla, 400 nəfər işsiz qaldıq. Maaş almasaq da zavoda gəlib nəzarət edirik. Əgər əmlaklar geri qaytarılarsa, sahibkarlara şərait yaradılarsa, zavodu yenidən qurmaq olar".










### Bakı Şin Zavodu

Zavod SSRİ zamanında, 1959-cu ildə istifadəyə verilib. Burada vaxtilə yük və minik avtomobilləri və motosiklet üçün şin hazırlanıb. SSRİ-də ilk dəfə olaraq burada formator-vulkanizator istismara buraxılmış, şin istehsalında isə diafraqmadan istifadə edilmişdi. 1998-ci ildə isə zavodun 2500-ə qədər fəhləsi ödənişsiz məzuniyyətə göndərilib. Elə bu hadisə də zavodun fəaliyyətinin sonunu gətirib.

**Zavodun ərazisini gəzərkən öyrəndik ki, hazırda orada taxta sexi fəaliyyət göstərir. Bu sexdə qapı, pəncərə və digər bu kimi mebel əşyaları hazırlanır. Sexdə 50 nəfərə qədər adam çalışır. Zavodun girişində xüsusi tikilidə əyləşən nəzarətçi ilə söhbətimiz zamanı o bildirdi ki, 2006-cı ildə zavodun dəzgahlarını tamamilə söküb apardılar. Hazırda nəzarət ediləsi heç bir dəzgah yoxdur. Elə orada olduğumuz zaman vaxtilə maşınqayırma zavodunda işləyən Rəsul kişi söylədi ki, sovet dövründə də sexlərin fəaliyyətində tez-tez dayanma müşahidə olunub:** "Ancaq bu, iqtisadi proseslərlə bağlı deyildi. Sadəcə olaraq, iş çox idi, fəhlə isə yox. Fəhlə tapmaq üçün gedirdik Dağıstana. Zavodlarda o qədər iş var idi ki, artıq işçi sayı yetmirdi. Həmin zaman maşınqayırma sahəsi üzrə 28 mindən çox adam çalışırdı. İndi isə həmin zavodlarda heç 28 nəfər işləmir. Çünki heç zavodların özləri də yoxdur axı. Fikir verirəm, burada bir taxta sexi var. Hər gün ondan çox müxtəlif yaşlı insan gəlir, iş axtarır. Adamın ürəyi də ağrıyır, ancaq nə edəsən. Taxta sexi də deyib ki, iş üçün kimsə gələn zaman yanıma göndərməyin. Çünki orada da iş yoxdur..."

### Bakı Kanat Zavodu

Bakı Şin Zavodunun yanında bir zamanlar fəaliyyət göstərən və SSRİ dövründə məftillər, "tros" istehsal edən Bakı Kanat Zavodu isə hazırda elə vəziyyətdədir ki, oradan keçərkən insan vahimələnir. Zavodun həyətində heç kimə rast gəlmədik. Yarımsökülmüş tikililərin içərisində itlər oynaşırdı...

***

**Mövzu ilə bağlı Nazirlər Kabinetinin sabiq şöbə müdiri Oqtay Haqverdiyevlə də danışdıq. O.Haqverdiyev musavat.com-a bildirdi ki, əslində bu zavodları bərpa etmək hazırkı zamanda doğru olmasa da, həmin ərazidə müasir tələblərə cavab verən müəssisələr açmaq olar:** "Bu tip zavodların istehsal etdiyi məhsullar ümumi daxili məhsulun 15 faizini verirdi. Adını çəkdiyiniz zavodlar neft avadanlıqları üçün müxtəlif hissələr hazırlayırdı. Hələ sovet dövründə zavodlarda istehsal edilən texnologiyalar Qərbdən 50 il geri qalırdı. Hazırda müasir elm tutumlu, yeni müəssisələr yaranmalıdır. Lakin bir məqama diqqət etmək lazımdır: hər hansı bir obyekt tikilmədən öncə onun bazarı təyin olunmalıdır. Sadəcə olaraq, iş yerləri açılsın deyə, rəqabət qabiliyyəti, ixracyönümü olmayan məhsul istehsal etmək olmaz. Hazırda Azərbaycanda elə müəssisələr yaranmalıdır ki, onlar ixracyönlü olsun".








❑ **Əli RAİS**
❑ **Fotolar müəllifindir**

**Azərbaycanın da yerləşdiyi Güney Qafqaz regionunda köklü maraqlara sahib Türkiyə və Rusiya arasında münasibətlər yenidən gərginləşib. Rusiya tərəfi boynuna almasa da, rəsmi Ankara, Pentaqon və NATO təsdiqləyir ki, bu dəfə də rus hərbi təyyarəsi qardaş ölkənin hava məkanını pozub. İnsidentlə bağlı Rusiya səfiri Türkiyə XİN-ə çağırılıb, ölkə Silahlı Qüvvələri tam hazırlıq vəziyyətinə gətirilib, prezident Rəcəb Tayyib Ərdoğan belə hal təkrarlanarsa, xəbərdarlıq edilmədən "vur" əmrini verib.**






# Bu il Qarabağa dair Minsk konfransı çağırıla bilər

## Azərbaycanın öhdəsində bu məsələni gündəmə gətirmək üçün bütün əsaslar var; Avropanın aparıcı dövləti kimi Almaniya da ATƏT-in yeni sədri olaraq təşəbbüsü ələ alıb bu yöndə status-kvonun dəyişməsinə ciddi töhfə verə bilər, əgər...

Yeni ilin ilk ayı beləcə iki regional güc arasında növbəti xoşagəlməz hadisə ilə yadda qalıb. Bu olay şübhə yox ki, regionda, xüsusən də Dağlıq Qarabağ konflikti ətrafında situasiyaya əlavə neqativ çalarlar qatır, münaqişənin həlli yönündə zəruri olan qarşılıqlı etimad atmosferini daha əlçatmaz edir.

Ən azı o səbəbdən ki, konfliktin həlli perspektivinə həm Rusiyanın, həm də Türkiyənin mühüm təsir imkanları var və istəsək də, istəməsək də hər iki amil ciddiyə alınmaq zorundadır. Belə ki, əgər Moskva işğalçı Ermənistan üzərində həlledici söz sahibidirsə, qardaş ölkə də Azərbaycanın yanında sözükeçərli dövlətdir. Deməli, Qarabağa dair hansısa anlaşma variantında Rusiya və Türkiyənin səyləri ilə sülhə daha tez nail olmaq mümkündür. Əksinə, Moskva və Ankara arasında konfrontasiya Qarabağ ixtilafının təzədən qızışma ehtimalını artırır.

***

Bu və başqa səbəbdən belə görünür, ATƏT-in yeni sədri kimi Almaniya üçün 2016-cı il Avropanın aparıcı dövləti olmasına rəğmən, yetərincə gərgin keçəcək. Rəsmi Berlin öz nüfuzundan istifadə edib ATƏT-in Minsk Qrupunun işində canlanma yarada biləcəkmi? Özündə potensial müharibə riskləri daşıyan mövcud status- kvonun dəyişməsinə nail ola biləcəkmi?

Söyləmək çətindir. Ona görə ki, Almaniyanın Dağlıq Qarabağ probleminin həllinə yanaşması üç vasitəçi dövlətin - ABŞ, Rusiya və Fransanın yanaşması ilə üst-üstə düşmür, Berlin ədalətli mövqedə dayanır, Azərbaycanın haqq işini müdafiə edir.

Almaniya hökuməti konfliktə Azərbaycanla Ermənistan arasında olan münaqişə kimi baxır və işğal altındakı ərazilərin azad edilməsini sülh planı üçün əsas şərt hesab edir. Bənzər mövqeyi ötən ilin yanvarında Berlinə səfəri zamanı Azərbaycan prezidenti İlham Əliyevlə görüşən Almaniya kansleri Angela Merkel ortaya qoymuşdu.

Məhz bu səbəbdən rəsmi Bakı Almaniyanın Dağlıq Qarabağ məsələsində fəallaşmasına çox pozitiv baxır. Keçən il isə Azərbaycan tərəfi Almaniyanın həmsədrliyə gətirilməsi ilə Minsk Qrupunun hazırkı uğursuz formatını dəyişdirməyə çeşidli səylər göstərib. Əfsuslar olsun ki, Qarabağ münaqişəsini "özəlləşdirmiş" üç həmsədr ölkə buna siyasi qısqanclıq göstərdilər və imkan vermədilər. Yeri gəlmişkən, onlar Almaniyanın BMT Təhlükəsizlik Şurasının 6-cı daimi üzvü kimi qəbul edilməsinə də razılıq verməmişdilər.

Bununla belə, Almaniyanın ATƏT sədri kimi mandatı və nüfuzu yenə də Dağlıq Qarabağ məsələsinə onun müəyyən ciddi töhfə verməsini mümkün edir - bir şərtlə, Minsk Qrupu həmsədrləri buna qısqanc yanaşmasın və özləri də sülh prosesinə təkan versinlər. Əks təqdirdə, problem yerində qalmaqda davam edəcək.

***

Onu da yada salaq ki, Almaniya dövləti Minsk Qrupunun üzvüdür. Bu xüsusda rəsmi Berlinin təşəbbüslərindən biri elə öz nüfuzundan istifadə edib Minsk konfransını çağırmaq ola bilər. Bu konfransda bir daha problemin beynəlxalq hüququn prinsipləri əsasında, Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad olunması əsasında həllinin vacibliyi təsbit edilin bilər ki, bununla da həmsədrlər fakt qarşısında qalardılar.

Belə bir sənədin qəbul olunmasının vaxtı əslində çoxdan çatıb. Hər halda, Türkiyə ilə öz arasında gərginləşən münasibətlər fonunda Rusiyanın əhəmiyyəti artan forpost Ermənistanı heç kimin ayağına verməyəcəyi yəqindir. Deməli, mövcud şərtlər fonunda Dağlıq Qarabağ məsələsində də ona təzyiqlər edəcəyini gözləməyə dəymir.

Fransaya gəlincə, elə ötən həftə bəlli oldu ki, prezident Fransua Olland saxta "erməni" soyqırımını inkara görə cəza nəzərdə tutan qanunun qəbulu üçün yenidən təşəbbüslə çıxış eləməyə hazırlaşır. İşğalçı Ermənistanı "öz kiçik bacısı" sayan bir dövlətin rəhbəri əgər belə bir mövqedədirsə, Fransadan da ədalət gözləməyə dəyərmi?

O ki qaldı Amerikaya, nə yazıq ki, ABŞ da məsələdə indiyədək neytrallıq və obyektivlik nümayiş etdirə bilmir. Dağlıq Qarabağdakı separatçı rejimin təmsilçilərinin vaxtaşırı ABŞ-a səfər edərək Vaşinqtonda, Konqresdə rahatca görüşlər keçirməsi, Amerikanın hər il separatçı rejimə maliyyə köməyi ayırması *(halbuki başqa separatçı qurumun təmsilçilərinə qarşı ən sərt qadağalar tətbiq olunur)*, habelə işğala məruz qaldığı halda "Azadlığı müdafiə aktı"na 907-ci düzəlişin məhz Azərbaycana tətbiq olunması buna parlaq sübutdur.

***

Bu və digər amillər toplusu dinc nizamlama prosesinin perspektivlərini xeyli dumanlı edir. O özdən Azərbaycan da təcavüzə məruz qalan tərəf kimi özünün müstəsna beynəlxalq hüququndan yararlanaraq, həmçinin BMT Təhlükəsizlik Şurasının Qarabağa dair qətnamələrinin həmsədrlər tərəfindən məqsədli şəkildə ilərdir sabotaj olunmasını əsas götürərək, konfliktlə bağlı Minsk konfransını çağırıb, situasiyaya real və obyektiv qiymət verilməsinə çıxış yolu tapılmasına nail ola bilər. Bu addımla eyni zamanda müharibə riskləri bütün ciddiliyi ilə gündəmə gətirilmiş olar.

Belə bir toplantı ən azından, Minsk Qrupunun indiki həmsədrliyinin işinin effektsiz olmasını təsbiti demək olardı ki, bu da yeni Azərbaycanın perspektiv maraqlarına uyğundur.

# AVCİYA Minsk Qrupu həmsədrlərinin xidmətindən imtinaya çağırdı

**Qurumun vitse-prezidenti:** "”Sərsəng harayı” layihəsi öz hədəfinə çatdı..."

**Azərbaycan Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) Azərbaycan hökumətini ATƏT-in Minsk Qrupu həmsədrlərinin xidmətlərindən imtina etməyə çağırıb. Bununla əlaqədar AVCİYA bəyanatla çıxış edib.**

Bəyanatda bildirilir ki, ATƏT-in Minsk Qrupu həmsədrlərinin Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) fəaliyyətinə müdaxiləsi beynəlxalq hüququn kobudcasına pozulması kimi qiymətləndirilməlidir: "ATƏT-in Minsk Qrupunun Azərbaycanın başqa beynəlxalq təşkilatlarda ədalət axtarması cəhdlərinə müdaxilə etməyə və işğalla bağlı məsələni öz monopoliyasında saxlamağa cəhd etməsinin heç bir hüquqi əsası yoxdur. AVCİYA xarici təsirlərə qarşı ölçü götürmək iqtidarında olmayan AŞ PA-da bosniyalı deputat Militsa Markoviç tərəfindən hazırlanmış "Azərbaycanın sərhədyanı rayonlarının sakinlərinin qəsdlə içməli sudan məhrum edilməsi" qətnaməsinin müddəaları yerinə yetirilməyənədək Azərbaycanı bu qurumda fəaliyyətini dondurmağa çağırır".

**Qeyd edək ki, tədbirdə AVCİYA-nın prezidenti, deputat Elxan Süleymanov iştirak edib. Toplantıda çıxış edən AVCİYA-nın vitse-prezidenti Vəli Əlibəyov isə bildirib:** “"Sərsəng harayı" layihəsi 2013-cü ildə başlayıb. Məqsəd dünya ictimaiyyətini erməni terrorçularının Azərbaycanın sərhədyanı ərazilərini qəsdən sudan məhrum etməsi barədə məlumatlandırmaq idi. Layihə öz məqsədinə çatıb. "Sərsəng harayı" dünya ictimaiyyətinə çatdırılıb".



Xatırladaq ki, AŞ PA-nın son qış sessiyasında Dağlıq Qarabağ və digər ərazilərin işğalı ilə bağlı başqa bir qətnamə layihəsi həm də Minsk Qrupu həmsədrlərinin müdaxiləsi ilə, cəmi 4 səs fərqlə qəbul olunmamışdı.

YENİ MÜSAVAT
N 24 (6345) 2 fevral 2016

# Bakıdan Çinə gedən qatar Qazaxıstanda "itib"



**Rusiyanın ətrafından keçərək Avropadan Çinə "İpək yolu" ilə yük daşıyan Ukrayna qatarı qrafikdən geri qalır. FaktXəbər-in verdiyi məlumata görə, bu barədə «Tass» agentliyi bildirib.**

Agentliyin «Dostıq» stansiyasında olan əməkdaşı qatarın stansiyaya gəlmədiyini bildirib.

Respublikanın «Qazaxıstan temi jolı» operatoru qatarın harda olduğu barədə məlumat verə bilməyib, sadəcə, qatarın respublika ərazisi ilə hərəkətdə olduğunu bildirib.

Yerli nəqliyyat kampaniyalarından isə yanvarın 30-da qatarın Karakandan əyalətinin Balxaş stansiyasında ödəmə etmədiyi üçün dayandırıldığı bildirilib. Ancaq xəbərin rəsmi təsdiqi yoxdur.

10 vaqon və 20 qırxfutluq konteynerdən ibarət sınaq qatarı Ukraynanın İlyiçevsk limanından yanvarın 15-də yola salınmışdı. Yanvarın 22-də Ələtdə yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Bərə Terminalına çatan konteyner qatarı buradan Qazaxıstana, ordan isə Çinə doğru yol almışdı. *(Qatar Gürcüstanın Poti limanına yanvarın 20-də çatmışdı).*

Yeri gəlmişkən, Ukrayna-Gürcüstan-Azərbaycan-Qazaxıstan-Çin dəmir yolu marşrutunun uzunluğu 5471 km-dir. Bu marşrut "İpək yolu"nun yeni istiqaməti olacaq və Rusiyadan yan keçməklə Ukraynadan yüklərin Mərkəzi Asiya bazarına alternativ olaraq çatdırılmasına xidmət edəcək.

Yanvarın 14-də isə Bakıda keçirilmiş dördtərəfli görüşdə Azərbaycan, Qazaxıstan, Gürcüstan və Ukrayna nümayəndələri «Transxəzər» Beynəlxalq Nəqliyyat Marşrutunda vahid tariflərin müəyyənləşdirilməsi haqqında razılığa gəliblər.

Yanvarın 1-dən Rusiya Ukrayna üçün azad ticarət zonası haqqında MDB-nin müqaviləsini dayandırıb və bu ölkənin mallarının öz ərazisindən tranzitinə qadağa qoyub.

Ukrayna hazırda Rusiya vasitəsilə yüklərin tranzitini dayandırıb və bu səbəbdən yük daşımalarını Belarus ərazisindən həyata keçirir. Avropa ilə Asiyanı birləşdirən yeni marşrut elə digər 4 ölkə üçün də iqtisadi cəhətdən əlverişli hesab olunur.



## Paytaxtda daha bir yol bağlandı

**Bakının mərkəzində daha bir yol bağlanır. Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzindən BAKU.WS-ə verilən məlumata görə, Avropa Qran Prisinin Azərbaycandakı təşkilatçısı Bakı Şəhər Halqası Əməliyyat Şirkəti bu il iyun ayında keçiriləcək Formula 1 yarışı ilə bağlı hazırlıq işlərini davam etdirir. Paytaxtın yarış trekinin üzərinə düşən mərkəzi küçələrində təmir-tikinti işləri qismən aparılır.**

Asfalt örtüyünün dəyişdirilməsi ilə əlaqədar aparılan təmir işlərinə görə fevralın 2-si səhər saatlarından etibarən İstiqlaliyyət küçəsinin Azərbaycan prospekti ilə kəsişməsindən başlayaraq Niyazi küçəsi ilə kəsişməsinədək olan hissəsində nəqliyyatın hərəkəti məhdudlaşdırılacaq. Bu yolda avtomobillərin hərəkətinə qoyulmuş məhdudiyyətlərin fevralın ortasınadək davam edəcəyi gözlənilir.

Xatırladaq ki, yarışdan öncə salınacaq və Formula 1 yarışı standartına cavab verən yenilənmiş yollar daimidir. Bu yollar Qran Pridən sonra paytaxt sakinlərinin istifadəsində olacaq.

## Polis Bakıya gələn maşında 1 ton 100 kq at əti aşkarladı

**Polis Bakıya satmaq üçün gətirilən 1 tondan artıq at əti aşkarlayıb. Musavat.com Daxili İşlər Nazirliyinin saytına istinadən bildirir ki, yanvarın 24-də Baş Dövlət Yol Polisi İdarəsinin Qaradağ rayonu ərazisindəki stasionar postunda Ağcabədi rayon sakini Nofəl Yusifovun idarə etdiyi "Ford" markalı avtomobil saxlanılıb.**

Baxış zamanı avtomobildə olan 1 ton 100 kiloqram at əti aşkar edilərək götürülüb.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**




## Bakıda saxta pul satmaq istəyən şəxslər tutuldu

**Daxili işlər orqanlarının əməkdaşları tərəfindən ölkənin maliyyə sisteminə ciddi təhlükə yaradan saxta pulların hazırlanması və dövriyyəyə buraxılmasının qarşısının alınması istiqamətində növbəti əməliyyat tədbiri həyata keçirilib.**

DİN-in mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, Bakı Şəhər Baş Polis İdarəsinin Cinayət Axtarışı İdarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Beyləqan rayon sakini Emin Abuşov 796 ədəd 100 dollarlıq saxta əsginazı 49 min manata satmaq istəyərkən saxlanılıb.

Aparılmış tədbirlərlə ona saxta əsginazların Bakı şəhər sakini Vüqar Abbasov və Gürcüstan vətəndaşı Əli Rüstəmov tərəfindən verilməsi müəyyən edilib və hər iki şəxs polis əməkdaşları tərəfindən tutulub. Baxış zamanı Ə.Rüstəmovun üzərindən 2 ədəd, V.Abbasovdan isə 10 ədəd 100 dollarlıq saxta əsginaz götürülüb.

Faktla bağlı Bakı şəhər BPİ-nin İstintaq və Təhqiqat İdarəsində cinayət işi başlanıb.

Cinayətin digər iştirakçılarının da müəyyən edilərək məsuliyyətə cəlb olunmaları istiqamətində zəruri əməliyyat-axtarış və istintaq tədbirləri davam etdirilir.

## Bu gün Bakıda güclü külək əsəcək, bəzi rayonlarda 15 dərəcə isti olacaq

**Bakı və Abşeron yarımadasında fevralın 2-də hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, gecəyə doğru bəzi yerlərdə yağış yağacağı, gün ərzində şimal-qərb küləyinin güclənəcəyi gözlənilir. Səhər bəzi yerlərdə zəif duman olacaq.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, havanın temperaturu Abşeron yarımadasında gecə 4-7, gündüz 8-13 dərəcə isti, Bakıda gecə 5-7, gündüz 10-12 dərəcə isti olacaq.

Atmosfer təzyiqi normadan yüksək 762 mm civə sütunundan 770 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 80-90, gündüz 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında fevralın 2-də hava şəraitinin çiskinli olacağı, gün ərzində bəzi yerlərdə yağış, dağlıq və dağətəyi rayonlarda sulu qar, qar yağacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 10-15 dərəcə isti, dağlarda gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, yüksək dağlıq ərazilərdə 3-8 dərəcə şaxta, gündüz 2-6 dərəcə isti olacaq.

## Nardaranda oğurluqla məşğul olan 16-19 yaşlı gənclər tutulub

**Nardaranda oğurluqda şübhəli bilinən 4 nəfər tutulub. Bakı şəhər Baş Polis İdarəsindən lent.az-a verilən məlumata görə, Sabunçu RPİ 42-ci PB əməkdaşlarının keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində yanvarın 29-na keçən gecə, Nardaran qəsəbəsində Bəxtiyar Məmmədovun evindən, pəncərəni sındırmaqla 2 ədəd kondinsioner, 2 ədəd su nasosu və 3 ədəd samovar oğurlamaqda şübhəli bilinən Nardaran qəsəbə sakinləri - 1997-ci il təvəllüdlü Nahid Yaqubov, 1999-cu il təvəllüdlü Vüsal Məmmədov, 2000-ci il təvəllüdlü Pərvin Qasımov və Elşad Kazımov tutulub. Araşdırma aparılır.**

## Elan

**Hüseynova Gövhər Saday qızının adına olan Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Sülh küçəsi ev 1, mənzil 165 saylı evin №-010035 saylı çıxarış itdiyi üçün etibarsız sayılır.**


**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 24 (6345) 2 fevral 2016

# "Etibar Pirverdiyevin adamları Qarabağ əlillərinə divan tuturlar"

## QAT müharibə iştirakçılarının kütləvi şəkildə işdən çıxarılmasından narahatdır

**Qarabağ Azadlıq Təşkilatı Mingəçevirdə Qarabağ əlilləri, veteranları, şəhid ailələrinin kütləvi şəkildə işdən çıxarılması, onların təhqir olunması ilə bağlı Prezident İlham Əliyevə müraciət göndərib. Müraciətdə göstərilir: "Mingəçevir şəhərində Qarabağ müharibəsi əlillərinə, veteranlarına, şəhid ailələrinə qarşı olan haqsızlıqlarla bağlı Sizə müraciət edirik.**




Mingəçevir şəhərində fəaliyyət göstətən İstilik və Elektrik Stansiyasında Qarabağ müharibəsi veteranlarına, əlillərinə, şəhid ailələrinə əsl divan tutulur, heç bir əsas gətirmədən məhz onlara qarşı ixtisar adı altında təzyiq və təhdid kampaniyası aparılır, onlara "Sizi kim göndərib Qarabağa, getməyəydiniz, indi əl-ayağımıza dolaşırsınız, gözümüz aydın ki, vuruşmusunuz, başımıza bəla olmusunuz, hamınızı burdan rədd edəcəyik" kimi ittihamlar səsləndirirlər. Bu rüsvayçı proses həmin müəssisəyə "Azərenerji" ASC-in prezidenti Etibar Pirverdiyevin yaxın adamı Gülağa Bəşirovun bu yaxınlarda direktor təyin olunmasından sonra başlayıb. Məlum deyil ki, Gülağa Bəşirov bu rüsvayçı hərəkətləri öz təşəbbüsü, yoxsa Etibar Pirverdiyevin tapşırığı ilə həyata keçirir. Gülağa Bəşirov çox sürətlə öz niyyətlərini həyata keçirməyə başlayıb və bir neçə gün əvvəl Qarabağ müharibəsi əlillərini *(aparıcı mühəndis Natiq Həsənovu, mühəndis Rəfail Cabbarovu, cilingər Əli Əliyevi, mühəndis Cingiz Nəzərovu, çilingər Bilal Qədirovu, çilingər Məhəməd Ramazanovu, çilingər Seyfəddin Ağayevi, Qarabağ əlilinin həyat yoldaşı Sevda Rüsəmovanı, şəhid ailələri Mehriban Kərimovanı, Pərvanə İbrahimxəlilovanı, Mədinə Əliyevanı, Xatirə Məmmədovanı)* bir əmrlə işdən azad edib. Onların işdən azad olunması üçün heç bir əsas gətirilməyib. Səbəb kimi ixtisara düşdüklərini göstəriblər, amma ixtisara düşənlərin, işdən çıxarılanların hamısı Qarabağ əlili, veteranı, şəhid ailəsidir. Onu da qeyd edək ki, bu adamların əksəriyyəti bu gün də Qarabağın azadlığı uğrunda mübarizələrini davam etdirir, Qarabağ Azadlıq Təşkilatının üzvləridirlər.

Siz dəfələrlə idarə, müəssisə rəhbərlərinə, məmurlara müraciət edərək bütün işçilərə, xüsusilə də Qarabağ müharibəsi əlillərinə, veteranlarına, şəhid ailələrinə qarşı diqqətli olmağı tapşırmısınız, son çıxışlarınızda isə hətta özəl qurumlara da xəbərdarlıq etmisiniz ki, insanlara qarşı diqqətli olsunlar, imkan daxilində ixtisarlara yol verməsinlər. Nazirlik, idarə, müəssisə rəhbərləri sanki Sizin çağırışları eşitmir, bu hərəkətləri ilə insanları incidir, ağır vəziyyətə salır, insanların narazı qalmalarına şərait yaradır.

Konkret haqsızlıqlarla bağlı Sizə müraciət etməyi özümüzə borc bildik və inanırıq ki, bu insanların küçəyə atılmasına razı olmayacaq, ədalətin bərpa olunması üçün tapşırıqlarınızı verəcəksiniz".

# Artıq əlillik müayinəsinin nəticəsini telefonla əldə etmək mümkündür

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi açıqlama yayıb



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsi açıqlama yayıb. Açıqlamada deyilir:**

"Vətəndaşların Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Elektron Hökumət" portalı üzərindən təqdim etdiyi "Tibbi-Sosial Ekspert Komissiyasında sonuncu müayinəyə dair məlumatın verilməsi" e-xidmətindən istifadə etmək imkanları genişləndirilib. Belə ki, nazirlik tərəfindən bu istiqamətdə növbəti tədbir kimi, əlillik müayinəsinin nəticəsi barədə məlumatın sadəcə telefon vasitəsilə daha sadə və asan şəkildə əldə oluna bilməsinə də imkan yaradılıb.

Artıq vətəndaşlar onların əlilliyinin və ya sağlamlıq imkanlarının məhdudluğunun müəyyən olunması ilə bağlı tibbi-sosial ekspert komissiyaları tərəfindən keçirilmiş müayinənin nəticəsi barədə nazirliyin 142-"Çağrı mərkəzi" vasitəsilə də məlumat əldə edə bilərlər. Bunun üçün texniki prosedur vətəndaşların asan və rahat istifadə edə bilmələri üçün sadə şəkildə qurulub. Tibbi-sosial ekspert komissiyaları tərəfindən əlilliyinin və ya sağlamlıq imkanları məhdudluğunun müayinəsi aparılmış istənilən vətəndaş "Çağrı mərkəzi"nə zəng edərək "0" düyməsini yığmalıdır. Bundan sonra şəxs özünün şəxsiyyət vəsiqəsinin nömrəsini və doğum tarixini daxil edir.

Daxil edilən rəqəmlər səsləndirilərək düzgünlüyü təsdiqləndikdən sonra əlilliyin və ya sağlamlıq imkanları məhdudluğun müəyyən olunması ilə bağlı aparılmış müayinənin nəticəsi *(hansı tarixdə və neçənci dərəcə əlillik qrupunun təyin olunması, əlilliyin nə qədər müddətə müəyyən edilməsi)* barədə məlumat vətəndaşın diqqətinə çatdırılır. Əgər şəxsə əlillik təyin olunmayıbsa, informasiya sistemində onunla bağlı məlumat olmadığı bildirilir.

"Tibbi-Sosial Ekspert Komissiyasında sonuncu müayinəyə dair məlumatın verilməsi" e-xidməti aparılmış əlillik müayinəsinin nəticəsi barədə məlumat əldə etməyə, habelə hər hansı quruma təqdim etmək üçün əlilliyə dair elektron arayışlar formalaşdırmağa yönəlib. Həmin e-xidmətdən vətəndaşların heç bir autenfikasiya vasitəsinə ehtiyac olmadan da istifadə proseduru sadələşdirilərək, elektron yolla da müvafiq məlumatın əldə olunmasına şərait yaradılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əhaliyə xidmət sisteminin təkmilləşdirilməsi yönündə tədbirlər bundan sonra da davam etdiriləcək".

# Azərbaycan pensiyaçıları yol süpürür, xaricilər isə dünya turuna çıxır...

## İqtisadçı ekspert bu təzadın köklü səbəblərindən danışır

**Soyuq havada yol süpürən, zibil daşıyan, araba sürən yaşlı insanlara tez-tez rast gəlirik. Çoxlarımız soyuqdan üşüyərək, bəlkə də utanaraq üz-gözünü örpəklərinin altında gizlədən bu yaşlı insanların yanından dəfələrlə etinasız keçmişik. Ahıl yaşlarında onları bu cür çətin əməyə məcbur edən isə təbii ki, dolanışıqdır.**



Acı gerçək belədir ki, Azərbaycanda pensiyalar əksərən kommunal xərcləri belə ödəmək iqtidarında olmur. Buna görə də pensiyaçı yaşlı insanlar qeyri-leqal əmək sahələrində çalışmağa məcbur olurlar. O üzdən Azərbaycanda qocalar qocalıqlarını istirahət içində deyil, min bir əziyyətlə çalışaraq, pul qazanmaqla keçirirlər.

Bizdən fərqli olaraq xarici ölkələrdə insanlar pensiyaya çıxacaqları günü səbirsizliklə gözləyirlər. 2150 dollar pensiya alan norveçli də, 1900 dollar alan fin də, 1200 dollar alan amerikalı da, 1290 dollar pensiya alan alman da pensiyaya çıxdıqdan sonra çox yüksək səviyyədə yaşayır. Onları hansısa maddi problem düşündürmür. Çünki dövlətin təyin etdiyi pensiya qocalıqlarını rahat şəkildə keçirməsini təmin edir. Onlar turist kimi dünyanı səyahətə də məhz pensiya pulları sayəsində çıxa bilirlər.

**Bəs nə etməli ki, Azərbaycan pensiyaçıları da əcnəbi pensiyaçılar kimi qocalıqlarını heç bir maddi sıxıntı çəkmədən rahat yaşasınlar? İqtisadçı ekspert Rəşad Həsənov bunun ən ciddi sosial problemlərdən biri olduğunu dedi:** "O baxımdan ki, vətəndaşlar pensiyaya çıxdığı dövrdə, sadəcə, yaşa görə pensiya almaqla yaşayışını təmin edə bilmir. Çünki onun həcmi az olur. Belə olan təqdirdə isə məcburdurlar ki, alternativ yollara əl atsınlar, iş axtarsınlar. Burada köklü problemlər var. Birincisi, qeyri-leqal əmək bazarı çox geniş yayılıb. İkincisi, bir çox hallarda əmək fəaliyyəti olan insanlar belə, onların əmək müqavilələrində əmək haqları normal göstərilmədiyi və ya azaldığı üçün onlara pensiya az düşür. Ən böyük problem isə Azərbaycanda pensiya təminatının zəifliyidir. Vətəndaşların baza pensiyası 100 manat, əməyə görə əlavələr gəlməklə isə orta hesabla 150-200 manatdır. Bu məbləğ də kommunal xərcləri belə ödəmək iqtidarında deyil. Bu baxımdan təminatsızlıq sosial problemin yaranmasının əsas səbəblərindən biridir. Bundan başqa, insanlar işlədiyi dövrdə yüksək həyat tərzi, gələcəkləri üçün bir həyat formalaşdıra bilmirlər. Bu səbəbdən də yaşlandıqları dövrdə, sadəcə, pensiyalarla öz həyat tərzlərini davam etdirə bilmirlər. Digər səbəb odur ki, bizdə əmək qabiliyyəti yerində olan insanların öz gələcəyi üçün daha sağlam təminat formalaşdırmaq imkanları məhduddur. Pensiya fondları olmadığı üçün insanlar öz gələcəkləri üçün hansısa yatırım edə bilmirlər. Pensiya sisteminə inam zəifdir. Bu inamsızlığa görə də insanlar əmək qabiliyyəti yerində olduğu, işlədiyi zaman öz gələcəkləri üçün ayırmaların edilməsində tələbkar olmur. Yaxud əmək bazarında o qədər ciddi rəqabət olur ki, vətəndaş iş verən qarşısında "mənim mütləq əmək müqaviləm olmalıdır, əmək müqaviləmdə gəlirlərim tam göstərilməlidir" kimi rəsmi tələblər ortaya qoya bilmir. Son nəticədə də problem yaranır. Ümumiyyətlə götürəndə həyat tərzinin aşağı səviyyədə olması, eyni zamanda pensiya təminatının zəifliyindən, yoxsulluqdan irəli gələn amillərdir. Gənc nəsil də çox çətinliklərlə ayaqda qalıb yaşadığı üçün yaşlanmış valideynlərinə hansısa formada maliyyə dəstəyi göstərə bilmir. Buna görə də ortaya bu cür mənzərələr çıxır".

**Ekspert bu istiqamətdə kompleks addımların atılmalı olduğunu, eyni zamanda sosial xərclərin artırılmasının vacibliyini vurğuladı:** "Bu istiqamətdə kompleks addımlar atılmalıdır. Təbii ki, bütövlükdə yükü hökumətin üzərinə qoymaq doğru deyil. Amma hökumət də minimum əməkhaqqı, pensiyanın baza haqqı, istehlak səbəti hesablanarkən real davranmalıdır. Yəni bugünkü göstəricilərə diqqət edərkən bir çox suallar ortaya çıxır ki, bu göstəricini, bu rəqəmləri ortaya çıxardan insanlara bu rəqəmlərin 2-3 dəfə artığını versək, bir ay ərzində dolana bilərmi? Bu sahədə hökumət sosial yükü artırmalıdır. Dövlət büdcəsi 15,17, 20 milyard, sosial xərclər isə 4-5 milyard olur. Yəni 20-25 faizdən yuxarı olmur. Sosial xərclərin artımı vətəndaşların həyat tərzinə, rifahına, pensiya təminatına yönəlmәlidir. Absurd rəqəmlərlə hesablamalar aparıb göstəricilər ortaya qoymaq olmaz. Şəffaflıq təmin edilməlidir. Vətəndaşın həyat tərzinə real yanaşmaq lazımdır. Əmək bazarı ilə bağlı da ciddi addımlar atılmalıdır. Qeyri-leqal əmək bazarının özü dövlət büdcəsini çox ciddi gəlirlərdən, vergilərdən məhrum edir. Digər tərəfdən isə vətəndaşların təminatsızlığına gətirib çıxarır. Ümumi götürəndə hökumət əsas diqqəti xüsusi sosial qrupların rifahının gücləndirilməsinə yönəltməlidir".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
Son səhifə
N 24 (6345) 2 fevral 2016

# Evlərini satıb dünya turuna çıxdılar



Çoxumuz işlərimizi kənara atıb yeni həyata başlamağı arzulayırıq, amma demək olar ki, bacarmırıq. Lakin Amerikada yaşayan cütlük bunu bacarıb. Teleqraf.com xarici mətbuata istinadən xəbər verir ki, Amerikada yaşayan nişanlı cütlük yaxta alaraq dünya turuna çıxıb. İşdən çıxan cütlük Nyu Cersidəki evlərini də satıblar. Onlar 2015-ci ilin may ayından bəri səyahət edirlər. İndiyə kimi Fransa, İspaniya, İtaliya, Elba, Korsika və Balearic adalarının sahillərində olublar. Vaxtlarını isə kitab oxumağa, musiqi dinləməyə, gəzdikləri sahilləri araşdırmağa və dənizin dibinə enməyə sərf edirlər. 2010-cu ildə tanış olan cütlük 2013-cü ildə nişanlanıb. Ancaq cütlük toya sərf edəcəkləri pulu daha səmərəli xərcləyə biləcəklərini düşünüb. Evlərini və istifadə etmədikləri əşyaları satan cütlük "Silwer Paws" *("Gümüşü pəncərələr")* adlı yaxtanı alıb.



# Kartofun rəsmi 1 milyon 83 min dollara satıldı

Kartof qida rasionumuzda mühüm yer tutan bitki olsa da, qiyməti o qədər də baha deyil. Amma bir kartof şəkli dünyanın ən bahalı rəsmlərindən biri sırasında yer alıb.

Türk mediasının yaydığı məlumata görə, məşhur fotoqraf Kevinin çəkdiyi kartof şəkli auksionda 1 milyon 83 min dollara satılıb.

"Kartof #345" adlanan bu foto hazırda dünyanın ən bahalı rəsmlərindən biri sayılır.

İndiyə kimi bir foto üçün ödənilən ən böyük məbləğ 6,5 milyon dollar təşkil edib. Bu məbləğ Peter Likin "Phantom" adlı fotosuna ödənilib.

# Dünyanın 10 maraqlı faktı

1. Mamontların nəsli Misir piramidaları tikildikdən 1000 il sonra tükənib.
2. Yerkökü əvvəllər bənövşəyi olub.
3. ABŞ-da kitabxanalar MacDonalds restoranlarından daha çoxdur.
4. Bananla insan DNT-sinin 50 faizi üst-üstə düşür.
5. İnsan eyni vaxtda yeməyi udmaq və nəfəs almaq qabiliyyətinə malik deyil.
6. Saturn və Yupiterdə almaz yağışları yağır.
7. Venerada bir gün bizim bir ilimizdən çox çəkir.
8. Pluton kəşf olunduğu və planet hesab olunduğu dövrdən bəri Günəş ətrafında bir dövrəni başa vurmayıb.
9. Delfinlər bir-birilərinə ad verirlər.
10. "Simpsonlar" serialı o qədər uzun müddətdir davam edir ki, bu il universiteti bitirənlər doğulanda bu serial artıq bir neçə il idi yayımlanırdı.





# Dünyada ən çox sərnişin Dubay aeroportundan keçir

Dubayın beynəlxalq aeroportu 2015-ci ildə dünyada ən çox sərnişin daşıyan hava limanı elan edilib. Bu barədə "Trend" "Reuters"ə istinadən məlumat verir.

Dubay aeroportu rəsmilərinin bildirdiyinə görə, söhbət beynəlxalq aviauçuşlardan gedir.

Hava limanının icraçı direktoru Pol Qriffits bildirib ki, ötən il ərzində yeni aviaşirkətlərin gəlişi və yeni marşrutların əlavə olunması ümumi trafikin 10,7% artmasına səbəb olub. Təkcə dekabr ayı ərzində aeroportdan 7 milyondan çox sərnişin faydalanıb. Ümumilikdə 2015-ci il ərzində bu göstərici 75 milyon nəfər olub. Qeyd edək ki, "dünyanın ən gediş-gəlişli aeroportu" titulunu uzun illər Londonun "Heathrow" hava limanı daşıyıb.




**QOÇ** - Heç nədən çəkinməyin. Əmin olun ki, qarşınızda duran bütün maneələri dəf etməyə gücünüz yetəcək. Bir şərtlə ki, günaha batmayasınız. Saat 16-dan sonra yeniliklər gözlənilir.

**BUĞA** - Hər bir qərarda imanlı olmağa çalışın. Kimisə acılamaq, zəif tərəfindən vurmaq, passivlikdə günahlandırmaq olmaz. Ümumiyyətlə, ünsiyyətdə ədalət prinsiplərindən qidalanın.

**ƏKİZLƏR** - Gələcək üçün nəzərdə tutduğunuz planları indidən götür-qoy etməlisiniz. Bu istiqamətdə müəyyən məsləhətləşmələr aparmaq da olar. İşdən sonra sevgi görüşləri səmərəlidir.

**XƏRÇƏNG** - Ətrafınızda baş verən hadisələrin məcrasından çıxması ovqatınızı aşağı salmamalıdır. Axı həyatın enişi də, yoxuşu da labüddür. Əsas planları günün ikinci yarısına saxlayın.

**ŞİR** - Fəaliyyət istiqamətində tənbəlliyi bir kənara atıb aktivliyinizi artırın. Ətrafınızda olanları başa düşməyə çalışın. Ola bilsin ki, gün ərzində müəyyən gəlir də əldə edəsiniz.

**QIZ** - Hansısa yeni işlərə başlamaq, uzaq yola çıxmaq, riskli pul sövdələşmələri aparmaq yolverilməzdir. Çünki bu gün daxili enerjiniz yalnız gündəlik qayğılarla məşğul olmağa yetəcək.

**TƏRƏZİ** - Bu gündən fevral ayının uğurlu zaman kəsiyinə daxil olacaqsınız. Odur ki, donub qalan bütün planlarınızı hərəkətə gətirməlisiniz. Tək əldən səsin çıxmadığını da nəzərə alın.

**ƏQRƏB** - Günün ümumi mənzərəsi düşərli görünür. Bu isə hər bir məsələdə şansların olacağını bildirir. Odur ki, aktivliyinizi artırmalısınız. Saat 17-dən sonra bütün dəvətləri təxirə salın.

**OXATAN** - İş rejimi imkan versə, fəaliyyətə ara verib müqəddəs ziyarətgahlarımıza, dünyadan getmişlərinizin qəbirlərinə baş çəkin. Axşama yaxın bir neçə yeniliyin şahidi olacaqsınız. Əşyalarınızı qoruyun.

**OĞLAQ** - Hər bir hərəkətinizi tənzimləməyə çalışın. Xüsusən də həmkarlarınızla münasibətdə mülayim olun. Əks təqdirdə saat 12-16 aralığında qalmaqalla üzləşməli olacaqsınız. Savab işlərinizi artırın.

**SUTÖKƏN** - Əgər daxili orqanlarınız qaydasındadırsa, qripdən uzaqsınızsa, gün ərzində hansısa problemlə üzləşməyəcəksiniz. Risk tələb edən məsələlərdə etibarlı dostlarınıza arxayın ola bilərsiniz.

**BALIQLAR** - Nahara qədər ətrafınızda baş verənlər ovqatınıza müsbət təsir göstərməyəcək. Buna baxmayaraq, təmkinli olsanız, xəta sovuşacaq. Saat 15-dən sonra maraqlı təkliflər gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Fransa prezidenti ərini güllələyən qadını əfv etdi



Fransa prezdenti Fransua Olland imzaladığı fərmanla 68 yaşlı Jaklin Savajı əfv edib. Musavat.com xəbər verir ki, bu barədə məlumat "Guardian" qəzetində yer alıb. Safaj 2010-cu ildə 47 il bir yerdə yaşadığı həyat yoldaşı Norbera Maronu qətlə yetirib.

Məlumatda bildirilir ki, ər alkoqol aludəçisi olub.

O, daimi olaraq öz həyat yoldaşını döyüb, öz doğma qızına qarşı isə seksual təzyiq göstərib.

Qadın qeyd edib ki, əri təkcə onun və qızının deyil, oğlunun da həyatını dözülməz edib. Bütün bunlara dözməyən oğul özünü asıb. Bu faciədən bir gün sonra Jaklin tüfəngdən üç dəfə atəş açaraq, ərini öldürüb.

Səhifəni hazırladı: SULTAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.300